## Tehranla Moskvanı üz-üzə qoyan dəhliz



Zəngəzur dəhlizi məsələsi yenidən regionun əsas gündəminə çevrilir.

Səhifə 4-də

# YENƏ "DƏMİR YUMRUQ" İSTƏYİRLƏR

Son dörd il göstərir ki, Ermənistan və ermənilərin konstruktiv məcraya yönəldilmələri üçün hər dəfə "dəmir yumruğ"a ehtiyac yaranır.



- Separatçıların yenidən peyda olan "lider"i Şahramanyanın sözləri tək onun deyil, bütövlükdə erməni separatizminin və "Qarabağ klanı" kimi tanınan Köçəryan-Sarqisyan cütlüyünün acizliyinin bariz göstəricisidir.
- Şahramanyanın bəyanatının nə qədər zəif dəlillər üzərində qurulmasından asılı olmayaraq, iddia kimi qalması erməni cəmiyyətində olan revanşizm meyllərini ortaya qoyur və daha da kəskinləşdirir.

SƏHİFƏ 5-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OL...

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

www.kaspi.az

7 SENTYABR ŞƏNBƏ 2024 № 34 (4185)

Qiyməti - 40 qəpik



PREZİDENT İLHAM ƏLİYEV FORUMDA ƏSAS QONAQ QİSMİNDƏ

# "BİZ ÇOX YAXIN TƏRƏFDAŞLARIQ"

Prezident İlham Əliyev İtaliyada təşkil edilən Beynəlxalq Forumda əsas qonaq qismində iştirak edib. Dövlət başçısının belə bir mötəbər foruma əsas qonaq qismində dəvət edilməsi Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun, etibarlı tərəfdaş kimi qəbul edilməsinin göstəricisidir.

**ƏLAQƏLƏR BÜTÜN SAHƏLƏRİ ƏHATƏ EDİR**

Prezident İlham Əliyev çıxışında İtaliya-Azərbaycan strateji tərəfdaşlığına toxunub. Bildirib ki, uzun illərdir Azərbaycan və İtaliya strateji tərəfdaş olaraq fəaliyyət göstərir və müvafiq bəyannamə 10 il bundan qabaq qəbul edilib: "Bizim əlaqələrimiz bütün sahələri əhatə edir, müntəzəm siyasi təmaslarımız var".

**16 MİLYARDLIQ TİCARƏT DÖVRİYYƏSİ**

Azərbaycan Prezidentinin sözlərinə görə, İtaliya Azərbaycanın dünyada bir nömrəli ticarət tərəfdaşıdır: "Ötən il bizim ticarət dövriyyəmiz 16 milyard ABŞ dollarına bərabər olmuşdur və əlaqələrimizin genişlənməsi üçün potensial yalnız enerji sektoru üzrə deyil, digər sektorlar üzrə də mövcuddur".

SƏHİFƏ 2-də

"Qadının gücünə etinasız yanaşmayın"

# TƏHSİLİN HƏMİŞƏ PRİORİTET OLDUĞU AİLƏ



"Evimin xanımı, üç qız anası heç kimə heç nə bildirmədən universitetə qəbul üçün sənədlərini veribmiş. Bakı Mühəndislik Universitetinin Beynəlxalq ticarət və logistika ixtisasına qəbul olub. Dörd qızı oxudanlar da cənnətlə mükafatlandırılırmı, görəsən?" Üç qızından sonra həyat yoldaşının da təhsilinə çıraq tutan ata və hədəfini heç vaxt rəfə qoymayan ana ilə söhbətləşdik. Qonaqlarımız Təhsil İnstitutunun direktor müavini Kənan Kərimli və həyat yoldaşı Minayə Kərimlidir.

SƏHİFƏ 8-9-da

## Gürcüstan üçün kritik seçki sınağı



Gürcüstanda parlament seçkiləri gərginliyi rəsmən başlayıb. Qanunvericiliyə əsasən, təbliğat çərçivəsində bir sıra qaydalar da qüvvəyə minib. Oktyabrın 26-da seçicilər dörd il müddətinə parlamentin 150 deputatını proporsional seçki sistemi əsasında seçəcəklər.

SƏHİFƏ 6-da

## Aralıq dənizinin balaca cənnəti



Malta kiçik ada dövlətidir. Bütün il boyu isti, rahat iqlimi, təmiz mavi dənizi, zəngin tarixi və mehriban sakinləri ilə dünyanın hər yerindən turistlərə qucaq açır. Ada Beynəlxalq Risk Hesabatında yaşamaq üçün ikinci ən təhlükəsiz ölkə kimi qeyd olunub.

SƏHİFƏ 13-də

## Yataqxanalar bu il də tələbəsiz qalacaq



Yeni tədris ilinə sayılı günlər qalıb. Rayonlardan Bakıya üz tutan tələbələri maraqlandıran ilk sual yataqxana ilə təmin olunub-olunmayacaqlarıdır. Amma belə görünür ki, universitetlərin bu il də onlara müsbət cavab vermək imkanları olmayacaq.

SƏHİFƏ 10-da

“ƏLAQƏLƏRİMİZ BÜTÜN SAHƏLƏRİ ƏHATƏ EDİR, MÜNTƏZƏM SİYASİ TƏMASLARIMIZ VAR”

# “BİZ ÇOX YAXIN TƏRƏFDAŞLARIQ”




Prezident İlham Əliyev “The European House – Ambrosetti” beyin mərkəzi tərəfindən təşkil edilən Beynəlxalq Forumda əsas qonaq qismində iştirak edib. Dövlət başçısının belə bir mötəbər foruma əsas qonaq qismində dəvət edilməsi Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun, etibarlı tərəfdaş kimi qəbul edilməsinin göstəricisidir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Prezident İlham Əliyev İtaliyaya işgüzar səfəri çərçivəsində “Dünya, Avropa və İtaliya haqqında bilgilər” mövzusuna həsr olunmuş Beynəlxalq Çernobbio Forumunda “Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu” adlı sessiyada çıxış edib.

Dövlət başçısı çıxışında bildirib ki, uzun illərdir Azərbaycan və İtaliya strateji tərəfdaş olaraq fəaliyyət göstərir və müvafiq bəyannamə 10 il bundan qabaq qəbul edilib: “Bizim əlaqələrimiz bütün sahələri əhatə edir, müntəzəm siyasi təmaslarımız var”. Bu səfərin 2020-ci ildən bəri onun İtaliyaya üçüncü səfəri olduğunu və 2018-ci ildə Prezident Mattarellanın Azərbaycana səfərini xatırladan dövlətimizin başçısı qeyd edib: “Bizim yüksək səviyyəli təmaslarımız onu nümayiş etdirir ki, biz çox yaxın tərəfdaşlarıq”.

### 16 MİLYARD DOLLARLIQ TİCARƏT DÖVRİYYƏSİ

Azərbaycan Prezidentinin sözlərinə görə, İtaliya Azərbaycanın dünyada bir nömrəli ticarət tərəfdaşıdır: “Ötən il bizim ticarət dövriyyəmiz 16 milyard ABŞ dollarına bərabər olmuşdur və əlaqələrimizin genişlənməsi üçün potensial yalnız enerji sektoru üzrə deyil, digər sektorlar üzrə də mövcuddur”. Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan İtaliyanın bir nömrəli neft və iki nömrəli qaz təchizatçısıdır. “Bu, bizim əməkdaşlığımızın mühüm sahəsini təşkil edir”, - deyə dövlətimizin başçısı əlavə edib. İlham Əliyev Avropanın enerji təhlükəsizliyinin təminində Azərbaycanın rolundan da bəhs edib. “Enerji təchizatı bu gün onu açıq şəkildə nümayiş etdirir ki, ölkələrin milli təhlükəsizliyi enerji təhlükəsizliyi ilə sıx bağlıdır”, - Prezident bildirib.

Azərbaycandan İtaliyaya uzanan 3 500 kilometrlik Cənub Qaz Dəhlizinin bu gün 10 ölkənin enerji təhlükəsizliyini təmin etdiyini vurğulayan dövlətimizin başçısı deyib: “Bu gün 10 ölkə Azərbaycandan qaz alır və bu ölkələrin yeddisi Avropa İttifaqının üzvüdür. Bu səbəbdən Avropa Komissiyası Azərbaycanı Ümumavropa qaz təchizatçısı və etibarlı tərəfdaşı adlandırır”.

## İKİ ÖLKƏ ARASINDA TƏBİİ KÖRPÜ OLACAQLAR

İki ölkə arasında digər sahələrdə də əməkdaşlığın uğurla davam etdirildiyini bildirən Prezident İlham Əliyev qeyd edib ki, artıq Azərbaycanda İtaliya-Azərbaycan Universiteti fəaliyyət göstərir: “Bu, bizim əməkdaşlığımızın şaxələndirilməsinin bariz nümunəsidir”.

İtaliyanın beş aparıcı universitetinin Azərbaycanda olan tərəf-müqabilləri ilə birgə təhsil ocağı təsis etdiklərini xatırladan dövlətimizin başçısı bildirib: “Orada təhsil almağa başlayacaq tələbələr Azərbaycan ilə İtaliya arasında təbii körpü rolunu oynayacaqlar. Onlar italyan dilini daha səlis biləcəklər. İtaliyanın tarixi irsini və mədəniyyətini də daha dərindən öyrənəcəklər”.



### “BİZ CƏNUBİ QAFQAZDA SÜLHƏ NAİL OLA BİLƏRİK”

Dövlət başçısı Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsindən də söz açıb. Bildirib ki, təkcə Qafqazda deyil, daha geniş coğrafiyada Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpası başlıca dəyişiklik olub. Prezident xatırladıb ki, 30 il ərzində bizim beynəlxalq səviyyədə tanınmış ərazimiz Ermənistanın işğalı altında saxlanılıb. Beynəlxalq təşkilatların, o cümlədən BMT Təhlükəsizlik Şurasının mütləq icra edilməli olan dörd qətnaməsinin olmasına baxmayaraq, bu işğal davam edirdi. ATƏT-in bu məsələ ilə məşğul olması üçün xüsusi qrup təsis etdiyini deyən dövlətimizin başçısı 28 il ərzində həmin qrupun sıfır nəticə hasil etdiyini vurğulayıb. “Biz Cənubi Qafqazda sülhə nail ola bilərik və bu gün Azərbaycan ilə Ermənistan arasında sülh istiqamətində aparılan danışıqlarda görürük ki, bu, mümkündür”, - deyə Prezident vurğulayıb.

Sülh müqaviləsinin mətninin təqribən 80 faizinin artıq razılaşdırıldığını vurğulayan dövlətimizin başçısı qeyd edib: “Artıq sərhədin delimitasiyası prosesinə, hətta demarkasiyasına nail olmuşuq. Bəli, bu, kiçik bir addımdır. On üç kilometrlik hissə demarkasiya edilib. Bizim Ermənistanla 1000 kilometrlik sərhədimiz var. Ancaq bu, düzgün istiqamətdə atılmış addımdır və ümid edirik ki, sülh danışıqları ilə bağlı Azərbaycanın irəli sürdüyü bu təşəbbüs sülh sazişinin imzalanması ilə nəticələnəcək”.

## PREZİDENT İLHAM ƏLİYEV ƏSAS QONAQ QİSMİNDƏ

Qeyd edək ki, Prezident İlham Əliyev İtaliyanın Çernobbio şəhərində “The European House – Ambrosetti” beyin mərkəzi tərəfindən təşkil edilən sayca 50-ci olan Beynəlxalq Forumda əsas qonaq qismində iştirak edib. Dövlət başçısının belə bir mötəbər forumu əsas qonaq qismində dəvət edilməsi Azərbaycanın beynəlxalq səviyyədəki yüksək nüfuzunun, etibarlı tərəfdaş kimi qəbul edilməsinin göstəricisidir. Azərbaycan Cənubi Qafqaz bölgəsinin əsas aparıcı dövləti və Avropanın enerji təhlükəsizliyində müstəsna rol oynayan bir çox beynəlxalq miqyaslı strateji layihələrin əsas təşəbbüskarı kimi qəbul edilir.



Xatırladaq ki, Prezident İlham Əliyev 2022-ci ildə də bu Forumda çıxış edib. Həmin vaxt onun xarici media nümayəndələrinin suallarına verdiyi ətraflı cavablar Forum iştirakçılarının böyük marağına səbəb olmuşdu.

1965-ci ildən fəaliyyət göstərən “The European House – Ambrosetti” İtaliyanın idarəetmə-məsləhət xidməti sahəsində aparıcı beyin mərkəzi hesab olunur. O, Mərkəzi Avropa və onun hüdudlarından kənarda ofislərə və geniş tərəfdaşlıq şəbəkəsinə malikdir. Dünyanın beyin mərkəzləri ilə bağlı aparıcı reytinqlərə əsasən İtaliyada birinci və Avropada ilk onluqda qərarlaşan “The European House – Ambrosetti” İtaliya və Avropa şirkətləri üçün əhəmiyyət daşıyan məsələlərin müzakirə olunduğu forumlar, müxtəlif tədbirlər keçirərək italyan şirkətlərinin qlobal tərəfdaşları ilə əlaqələrinin yaradılmasına, eyni zamanda, əməkdaşlığın təşviqinə xidmət edir.

# FRANSAYA QARŞI İTALİYA KARTI



İtaliya, Fransadan fərqli olaraq, Azərbaycanın Avropa bazarlarındakı enerji təminatçısı statusunu saxlamaq üçün rəsmi Bakıya dəstəyini əsirgəməyəcək. Bunun gələcək üçün böyük geoiqtisadi və geosiyasi əhəmiyyəti var.



AQŞİN KƏRİMOV

Azərbaycan Prezidenti İlham Əliyevin bu həftə İtaliyaya səfəri rəsmi Bakının Cənubi Qafqazda və Avropada hədəflədiyi maraqların sinxron ifadəsi kimi diqqətəlayiqdir. Azərbaycanın İtaliya ilə əlaqələrini genişləndirməsi ikitərəfli münasibətlərə strateji qazanclar gətirir.

Avropa İttifaqının və dünyadakı "böyük yeddiliy"in güclü üzvlərindən biri olan İtaliya ilə dostluq münasibətləri Azərbaycanın manevr imkanlarını genişləndirir. Azərbaycanın İtaliya vasitəsilə qazandığı mövqelər onun Avropa İttifaqının diqqət mərkəzinə düşmək imkanlarını artırır.

### İTALİYANIN XARİCİ SİYASƏTİNƏ ÜMUMİ BAXIŞ

Prezident İlham Əliyevin İtaliyaya səfərinin xarici siyasətdəki konturlarını görə bilmək üçün, rəsmi Romanın qlobal və regional arenalarda yürütdüyü kursun mahiyyətinə diqqət etmək lazımdır. İtaliya NATO üzvü kimi kollektiv öhdəliklərdən irəli gələrək münaqişələrə qarşı mübarizədə Transatlantik məkanın strateji mövqeyini qoruyub saxlayır. Misal üçün, o, Rusiya-Ukrayna münaqişəsində Ukraynanı dəstəkləyir, paralel olaraq isə Aralıq dənizi regionunda rolunu gücləndirir. Bununla belə, İtaliya Çinin "Bir kəmər, bir yol" təşəbbüsündən çıxsa da, Pekin ilə əlaqələrin yenilənməsinə qərar verib. Roma Pekinlə iqtisadi cəhətdən faydalı olmaq reallıqlarına əsaslanan siyasətin tərəfdarıdır.

İtaliya ABŞ ilə Çin arasında daha geniş strateji çəkişmələrə qarışmamağı üstün tutur, hərçənd ki, eyni zamanda Avropa İttifaqının Pekinlə əlaqədar ümumi narahatlıqlarından da üzərinə məsuliyyət götürür.

İtaliyanın Rusiya ilə münasibətlərində isə ikitirəlik müşahidə olunur. Hazırda rəsmi Roma birmənalı olaraq Kiyevi dəstəkləsə də, Nazirlər Kabineti və müxalifət daxilində fərqli fikirlər də mövcuddur.

### ÜST-ÜSTƏ DÜŞƏN MƏQAMLAR

İtaliya xarici siyasətdə qarşılıqlı anlaşmanın vacibliyi üçün ortaq baxışların yaradılmasına çalışır. Yəni rəsmi Roma NATO-nun kollektiv yanaşmalarına sadiq qalsa da, ümumilikdə qarışıq dünya nizamında hansısa geosiyasi qütbün məhdudiyyətsiz dominantlığının yarada biləcəyi genişmiqyaslı eskalasiya risklərindən çəkinir. Bu, Azərbaycanın tarazlaşdırılmış xarici siyasəti ilə üst-üstə düşən məqamların əksi kimi diqqətdən kənarda qala bilməz. Bu mənada İtaliyanın Cənubi Qafqaz regionundakı maraqları da nəzərəçarpacaq dərəcədə əhəmiyyət daşıyır. İtaliya Cənubi Qafqazda geosiyasi qarşıdurmaların gələcəkdə necə inkişaf edəcəyinə dair aydın hesablamalar aparmaq üçün Azərbaycan Prezidenti İlham Əliyevlə görüşlərə önəm verir. İtaliya ilə Azərbaycan arasındakı əlaqələr Cənub Qaz Dəhlizi layihəsi ilə daha da bərkiyib (TAP qolu) və bu, qarşılıqlı anlaşma üçün böyük dərəcədə qiymətli rol oynayıb. Ancaq indi həm Azərbaycan, həm də İtaliya bu əlaqələri daha yüksək zirvələrə doğru inkişaf etdirmək üçün yenilənmiş yanaşmaları qarşılıqlı maraqlar əsasında prioritetləşdirmək planlarını müzakirə edirlər.

## ƏLİYEVLƏ GÖRÜŞLƏR QARŞILIQLI MARAQLAR ƏSASINDA



İlham Əliyevin İtaliyaya səfəri zamanı bunun parametrləri aydın şəkildə göründü. Dövlət başçısının İtaliya Prezidenti Sercio Mattarella ilə görüşdə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması prosesi, delimitasiya və demarkasiya məsələləri üzrə mövqe bildirməsi rəsmi Romanın regionda Bakı ilə sıx əməkdaşlıq quracağının anonsu idi. Yəni İtaliya Azərbaycanın yanında yer alıb və Cənubi Qafqazda regional əməkdaşlıq layihələrində rəsmi Bakının ideya, təşəbbüs və təşviqlərinə böyük dəstək göstərir. Romanın belə bir diapazon seçməsi regionda Azərbaycana qarşı Qərb mərkəzli qüvvələrin fəallaşmasını tutarlı şəkildə neytrallaşdıra bilir.

İlham Əliyev italiyalı həmkarı ilə birgə işçi naharda:

- Avropa İttifaqının Azərbaycanla əsas ticarət tərəfdaşlarından biri olduğunu vurğuladı,
- Avropa İttifaqı ilə Azərbaycan arasında yaxşı əlaqələrin mövcud olduğunu dedi,
- Bununla belə, bəzi Avropa ölkələrinin bu əlaqələrin inkişafına maneə yaratdığını təəssüflə qeyd etdi,
- Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının qalmasını, bunun aradan qaldırılmasının sülh üçün vacibliyini önə çəkdi.

Prezident Sercio Mattarella da İlham Əliyevin sözlərinə qüvvət olaraq Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin genişlənməsinə və inkişafına daim dəstək göstərdiyini bəyan etdi.

Bununla yanaşı, onun İtaliyanın regionda sülh gündəliyini dəstəklədiyini qeyd etməsi prosesə maneə yaradan qüvvələrə zərbədir.

### İTALİYA FRANSAYA QARŞI AZƏRBAYCANIN YANINDA

Aydın görünür ki, İtaliya Fransanın Cənubi Qafqaz regionundakı gündəliyini dəstəkləmir. Paris regionda hər şeyə Fransanın obyektivindən baxmaq ideallarını təbliğ etsə də, Ermənistanı Azərbaycana qarşı müharibəyə təhrik etməklə sülh və təhlükəsizliyə risk yaratsa da, Avropa İttifaqındakı nəhəng İtaliya başqa mövqedədir. Bu, Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki roluna da əlavə dəstək qazandırır.

Fransa, şübhəsiz ki, Azərbaycanın əlindən bu rolları almaq üçün can yandırır, ancaq onun gizli gündəliyi İtaliya üçün də problemlidir. İtaliya Fransanın ziddinə gedərək, Azərbaycanın Avropa bazarlarındakı enerji təminatçısı statusunu saxlamaq üçün Bakıya dəstəyini əsirgəməyəcək. Bu məsələnin gələcək üçün daha böyük geoiqtisadi və geosiyasi əhəmiyyəti var, o mənada ki, Azərbaycan Avropaya həm də yaşıl enerji ixrac etməklə strateji aktivlərini dolduracaq.

Bakıda noyabrda keçiriləcək COP29 qlobal mötəbər tədbiri də Azərbaycanın "yaşıl dünyadakı" ixrac potensiallarının vizyonunu çəkməyə imkan verəcək. İtaliya da həmin tədbirdə təmsil olunacaq ki, bu da COP29-dan çıxan nəticələrdə Azərbaycan-İtaliya müştərək regional dinamikasına növbəti elementlər qatacaq.

# TEHRANLA MOSKVANI ÜZ-ÜZƏ QOYAN DƏHLİZ



Zəngəzur dəhlizi məsələsi Kremlin xüsusi gündəmindədir. Şimal qonşumuzun rəsmiləri, xüsusilə də xarici işlər naziri Sergey Lavrov və Rusiya XİN-nin sözçüsü Mariya Zaxarovanın dəhlizlə bağlı son açıqlamaları İranda ciddi narazılıq yaradıb.



**AZAD ƏLİYEV**
azad.eliyev@kaspi.az

Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirəcək 40 kilometrlik yol bu gün dünyanın aparıcı güc mərkəzlərinin əsl rəqabət və qarşıdurma meydanına çevrilib. Vətən müharibəsindəki qələbəmizdən dərhal sonra 10 noyabr üçtərəfli bəyanatına məlum maddənin salınması zamanı onun əhəmiyyətini bir çoxları o qədər də dərk etmirdi. "Zəngəzur dəhlizi" adını almış bu yol uğrunda indi dünyanın əsas güc mərkəzləri ciddi qarşıdurma yaşayırlar. Bəs nədir Zəngəzur dəhlizinin əhəmiyyəti? Bəs 40 kilometrlik yol uğrunda belə ciddi geosiyasi qarşıdurmanı alovlandıran nədir?

### BAKI VƏ İRƏVAN ÜÇÜN YENİ İMKANLAR

Azərbaycan üçün Zəngəzur dəhlizi ayrılmaz tərkib hissəsi olan Naxçıvana və strateji müttəfiqi Türkiyəyə birbaşa çıxış deməkdir. Geniş anlamda bu yol həm iqtisadi, həm də siyasi baxımdan Türk dövlətləri arasında birbaşa əlaqə, Şərq-Qərb dəhlizinin əsas arteriyalarından biri kimi dəyərləndirilir.

Ermənistan üçün isə Zəngəzur dəhlizi Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq və regional inteqrasiyanın bir parçasına çevrilmək, iqtisadi inkişaf deməkdir.

Göründüyü kimi, Prezident İlham Əliyevin dörd il öncə irəli sürdüyü təşəbbüs əslində Bakı və İrəvan üçün yeni imkanlar vəd edir. Ancaq təəssüf ki, Ermənistan rəhbərliyi bu dəfə də tarixi şansı qaçırmaq üzrədir.

### ALTERNATİV YOL, ZƏNGİN RESURSLARA ÇIXIŞ

Ukraynada müharibə başlayandan sonra Qərblə münasibətləri kəskinləşən Rusiya üçün Zəngəzur dəhlizi, əslində üzləşdiyi sanksiyalardan yan keçməklə dünyaya çıxış üçün alternativ imkan anlamına gəlir. Bakı və Ankara ilə münasibətlərini qoruyub saxlamağı bacaran Moskva Zəngəzur dəhlizi vasitəsi ilə Yaxın Şərq və cənub ölkələrinə çıxışı hədəfləyir. Həm də Moskvada bu arteriya Şimal-Cənub dəhlizinin mühüm tərkib hissəsi kimi qiymətləndirilir.

Türkiyə üçün isə Zəngəzur dəhlizinin əhəmiyyəti Azərbaycanın maraqları və məqsədləri ilə eynilik təşkil edir.

Avropa İttifaqı və ABŞ dəhlizə Mərkəzi Asiyanın zəngin resurslarına çıxış və Rusiyanın istər Cənubi Qafqazda, istərsə də məlum regionda təsirinin zəifləldilməsi imkanı kimi yanaşır.



## ZƏNGƏZUR DƏHLİZİ KREMLİN GÜNDƏMİNDƏ

Bütün bunların fonunda Zəngəzur dəhlizi ilə bağlı yeni gəlişmələr yaşanmaqdadır. Bu dəfə 40 kilometrlik yolun qarşı-qarşıya gətirdiyi nə Bakı ilə İrəvandır, nə də Vaşinqtonla Moskva. Son illərdə münasibətlərini üst səviyyəyə çıxararaq strateji müttəfiqlik haqqında saziş imzalamağa hazırlaşan Rusiya və İrandır.

Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana dövlət səfərindən sonra Zəngəzur dəhlizi məsələsi Kremlin xüsusi gündəmindədir. Şimal qonşumuzun rəsmiləri, xüsusilə də xarici işlər naziri Sergey Lavrov və Rusiya XİN-nin sözçüsü Mariya Zaxarovanın dəhlizlə bağlı son açıqlamaları İranda ciddi narazılıq yaradıb. İş o yerə çatıb ki, rəsmi Tehran Rusiyanın bu ölkədəki səfirini XİN-ə çağıraraq etirazını nümayişkaranə surətdə ifadə edib. Qeyd edək ki, S.Lavrov dəhlizin açılmamasının əsas səbəbkarı kimi Ermənistan rəhbərliyini göstərib. M.Zaxarova isə bu məsələnin üçtərəfli bəyanata uyğun rus sərhədçilərinin birbaşa nəzarəti altında həll edilməsinin aktuallığını itirmədiyini deyib. İranın narahatlığı ilə bağlı sualı isə Tehrana ünvanlamağı məs-ləhət görüb. Görünən odur ki, Moskva kommunikasiyaların açılması məsələsində prosesi ölü nöqtədən tərpətmək üçün artıq düyməyə basıb.



Sergey Lavrov

## İRANIN RUSİYAYA ETİRAZININ YARATDIĞI SUALLAR

İrana gəldikdə, Tehranın Zəngəzur dəhlizi ilə bağlı "narahatlıqlar"ını hakimiyyətə yaxın "Tasnim" agentliyi "Bu xəyali dəhliz yaradılmayacaq" sərlövhəli məqaləsində sadalayıb. Bildirilir ki, Zəngəzur dəhlizinin işə düşməsi İranın dünyaya çıxış qapısı olan sərhəd qonşularından birinin sayının azalması, Türkiyə-Azərbaycan tandeminin mövqelərinin güclənməsi, "İranın qırmızı xətt elan etdiyi bölgə dövlətlərinin sərhədlərinin və suverenliyinin pozulması" anlamına gəlir. Rusiya XİN-ni hədəfə alan məqalədə Moskvaya "strateji müttəfiqlik sənədi imzalamağa hazırlaşan dövlətin dəhlizlə bağlı bəyanatlarının müttəfiqlik ruhuna uyğun olmadığı" xatırladılır.

Əslində Tehranın müttəfiq adlandırdığı bir ölkənin sərhədçilərinin nəzarətində olacaq dəhlizin İranın maraqlarına zidd olması ilə bağlı iddiaları müəyyən suallar doğurur. Onsuz da İran-Ermənistan sərhədində rus hərbçiləri xidmət edir. Bu məsələdə Tehranın başlıca qorxusu 44 günlük müharibədən sonra Azərbaycana təsir imkanlarının minimuma düşməsi, əlində olanları da itirmək riskidir. Artıq Ermənistan rəhbərliyi də Tehranın məlum demarşından ürəklənərək Moskvanın dəhlizə nəzarətinin mümkünsüzlüyünü açıq şəkildə bəyan edir. Yəni Tehran bu məsələdə İrəvanı da özünün dili ilə danışmağa məcbur edir. Rusiyanın istər Tehrana, istərsə də vaxtilə forpostu elan etdiyi İrəvana hansı cavabı verəcəyi maraq doğurur. Əslində yeni gəlişmələrin istiqaməti də Kremlin mümkün reaksiyasından sonra müəyyənləşəcək.

### AZƏRBAYCANIN MÖVQEYİ DƏQİQ VƏ AYDINDIR

Azərbaycanın dəhlizlə bağlı mövqeyi dəqiq və aydındır. Hazırda Ermənistanın bu dəhlizlə bağlı təhlükəsizlik zəmanəti vermək imkanı yoxdur. Açılacaq yol beynəlxalq hüquqa uyğun şəkildə maneəsiz keçidi təmin etməlidir. Burada üçüncü tərəfin təhlükəsizlik zəmanəti mütləqdir. Digər tərəfdən, Azərbaycan üçün regional kommunikasiyaların işləməsi məsələsində hansısa çətinlik də yoxdur. Bakı İran üzərindən hər iki dövlətin maraqlarına uyğun olan alternativ marşrut reallaşdırır. Zəngəzur dəhlizi hazırda bir-biri ilə ciddi qarşıdurma aparanlara və onlara bu meydanı verən Ermənistana daha çox lazımdır.

# YENƏ "DƏMİR YUMRUQ" İSTƏYİRLƏR

Son dörd il göstərir ki, Ermənistan və ermənilərin konstruktiv məcraya yönəldilmələri üçün hər dəfə "dəmir yumruğ"a ehtiyac yaranır. Artıq Qərbi Azərbaycan hökumətinin yaradılması ilə bağlı əməli addımların atılmasının zamanı yetişib.



RÜSTƏM QARAXANLI



Başa çatan həftə Azərbaycanla Ermənistan arasındakı münasibətlər iki əlamətdar hadisə ilə yadda qaldı. Baş nazir Nikol Paşinyan ötən il sentyabrın 2-də olduğu kimi separatçı soydaşlarına "Artsax"ın "müstəqillik bəyannaməsinin qəbulu" ilə bağlı təbrik ünvanlamadı. Görünür, o, Azərbaycan ordusunun 23 saatlıq antiterror əməliyyatının nəticələrindən yaxşı dərs çıxarıb. Rəsmi İrəvandan səs çıxmadığını görən separatçıların son "prezident"i olmuş Samvel Şahramanyan isə özlərinə xas şəkildə növbəti qeyri-ciddi bəyanata imza atdı. Qanunsuz rejimin qanundankənar "lider"i bildirdi ki, rəhbərlik etdiyi qurumun buraxılması haqqında imzaladığı "sənəd" "konstitusiyaya ziddir". Bu azmış kimi, tələb də etdi ki, Qarabağdan öz xoşlarına qaçıb getmiş separatçı əhali "beynəlxalq təminatlar" altında geri qayıtsın.

### SEPARATÇI SİRK

Şahramanyan oxşar məzmunlu bəyanatla bir dəfə də çıxış etmişdi və gülünc olması səbəbindən "arqumentlər"i su quyusuna atılan daş effekti vermişdi. Onun separatçı məntiqinə görə, heç bir dövlət, o cümlədən Ermənistan tərəfindən tanınmayan qanunsuz rejimin liderinin imzaladığı qanundankənar sənəd mücərrəd "konstitusiya"ya ziddir. Yəni özünü "prezident" sayan bu satirik obraz boynuna alır ki, "qanunsuz" əməl törədib və bu "qanunsuzluğ"u aradan qaldırıb "qanun" müstəvisinə qaytarmaq - amorf "konstitusiya"ya uyğunlaşdırmaq lazımdır. Qanuna zidd əməl törətdiyini boynuna alan ilk prezident olmasa da, ilk separatçı "prezident" olaraq tarixə düşən Şahramanyanın sözləri tək onun deyil, bütövlükdə erməni separatizminin və "Qarabağ klanı" kimi tanınan Köçəryan-Sarqisyan cütlüyünün acizliyinin bariz göstəricisidir. Sirr deyil ki, Şahramanyanın söylədikləri əlləri minlərlə azərbaycanlının qanına batmış, 30 ilə yaxın müddət ərzində erməni xalqını öz hikkələrinin əsirinə çevirmiş bu şəxslərin cəmiyyətə ünvanlamaq istədikləri mesajdır. Əgər əvvəllər erməni separatizmini bəsləyən, İrəvandakı hakimiyyətlərə və Qarabağda kök salmış cəllad rejimə "gözün üstündə qaşın var" deməyən dünya dövlətləri bu kimi qeyri-ciddi bəyanatlara göz yumurdularsa, indi sadəcə deyiləsi sözləri yoxdur. Ədalət təmin olunub, Azərbaycan ərazi bütövlüyünü bərpa edib və erməni himayədarları indi reallığı həzm etmək məcburiyyətində qalıblar.

Bununla belə, Şahramanyanın bəyanatının nə qədər zəif dəlillər üzərində qurulmasından asılı olmayaraq, iddia kimi qalması erməni cəmiyyətində olan revanşizm meyllərini ortaya qoyur və daha da kəskinləşdirir. Çünki bu məzmunda danışan yalnız o deyil...

## QANLI KİLSƏDƏN MÜHARİBƏYƏ ÇAĞIRIŞ

Qızışdırıcı bəyanatla erməni dövlətçiliyinin əsas sütunlarından biri olan kilsənin başçısı - katolikos II Qaregin də çıxış edir. Əgər Şahramanyan "hüquqi" prosedurlardan bəhs edirsə, Qaregin erməni xalqını "ədaləti bərpa etməyə" səsləyir. Bu, faktiki olaraq yeni müharibənin başlaması istiqamətində təhrikedici addımdır. Erməni əhalisi arasında katolikosu dinləyən az deyil və Paşinyanın tam məğlub etməyi bacarmadığı kilsənin bu mövqeyi kifayət qədər ciddi analiz edilməlidir. Erməni dövlətçiliyi kilsə ətrafında formalaşmış anlayışdır. Qarabağda separatçılığın baş qaldırmasında həm yerli, həm də Ermənistandan və dünyanın müxtəlif yerlərindən buraya "ezam" edilmiş din xadimlərinin həlledici rolu var. Onlar əllərində silah hərbi əməliyyatlarda iştirak ediblər. İndi bu imkandan məhrum olan kilsə Ermənistanda hakimiyyətin devrilməsi və Köçəryan tərəfdarlarının siyasi Olimpə qayıtması istiqamətində əsas rolun ifaçısıdır. Bu ilin mart-aprel aylarından etibarən Paşinyan hökumətinə qarşı başlanan "xalq hərəkatı"nın önündə məhz kilsə xadimləri gedir. Qarşıdakı günlər ərzində bu hərəkatın yeni həmləsinə start veriləcəyinə dair xəbərlər dolaşır. Odur ki, Qareginin bəyanatı sıradan sözlər deyil və erməni cəmiyyətində hələ də "Paşinyanı devirib Artsaxı qaytaraq" kimi xülya ilə yaşayan kifayət qədər böyük kontingent mövcuddur.

## QƏRBİ AZƏRBAYCAN HÖKUMƏTİNİN VAXTI ÇATIB

Son dörd il göstərir ki, Ermənistan və ermənilərin konstruktiv məcraya yönəldilmələri üçün hər dəfə "dəmir yumruğ"a ehtiyac yaranır. Əgər 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatında İrəvan hərbi gücümüzün qüdrətini dərk etmişdisə, Şahramanyan və onun kimilərin separatçı ofisinin rəsmi İrəvan tərəfindən hələ də qapadılmaması faktı tarixə əsaslanan diplomatiyamızın təsirini görməlidir. Söhbət Qərbi Azərbaycan hökumətinin yaradılmasından və müasir Ermənistan ərazisində qalan tarixi torpaqlarımıza dair ədalətli tələblərimizin beynəlxalq hüquq və qanun müstəvisində sistemli formada irəli sürülməsindən gedir. Əgər Paşinyan hökuməti Azərbaycanın ərazi bütövlüyünü tanıyırsa və dediyi kimi, günü bu gün yekun sülh müqaviləsini imzalamağa hazırdırsa, onda buyursun, separatçıların İrəvandakı ofisini qapatsın və Şahramanyan kimilərini susdursun. Rəsmi İrəvanın susub separatçıları danışdırmaqla nəyəsə nail olacağına ümid etməsi əbəsdir.



Samvel Şahramanyan

Azərbaycanın revanşizmə hesablanmış bu tendensiyanın neytrallaşdırılması üçün yetərincə imkan və arqumenti mövcuddur. Ermənistandan - tarixi torpaqlarımızdan zorla və silah gücünə qovulmuş yüzminlərlə azərbaycanlı və onların övladları həyatdadır. Bu əhalinin qanuni yurdlarına qayıtmaq haqqı var. Onların qayıdışı və hüquqlarının bərpası məsələləri daha sistemli şəkildə qaldırılmalıdır. Əslən Qərbi Azərbaycandakı ata-baba yurdumuzdan olan deputatların da təmsil edildiyi parlament - Milli Məclis bu istiqamətdə fəaliyyətini intensivləşdirməlidir. Başqa sözlə, Paşinyanın susqunluğu şəraitində Şahramanyan kimilərinin Köçəryan və Sarqisyanın oyununu oynamaları İrəvan üçün ağır nəticələrə səbəb ola bilər. Beynəlxalq hüquqla yanaşı, tarixi faktlar da bizim lehimizədir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# GÜRCÜSTAN ÜÇÜN KRİTİK SEÇKİ



Əksəriyyət hesab edir ki, payızda keçiriləcək parlament seçkiləri Avropa və Rusiya arasında seçim seçkisi olacaq. Seçicilərin müharibə və sülh arasında seçim etməli olacaqları bildirilib.



AZƏR NURİYEV

Gürcüstanda parlament seçkiləri ilə bağlı mübarizə rəsmən başlayıb. Seçki qanunvericiliyinə əsasən, seçkiöncəsi təbliğat çərçivəsində bir sıra qaydalar da qüvvəyə minib. Oktyabrın 26-da seçicilər dörd il müddətinə Gürcüstan parlamentinin 150 deputatını proporsional seçki sistemi əsasında seçəcəklər. Gürcüstanda ilk dəfə olaraq Seçki Administrasiyası ən geniş miqyasda elektron seçki texnologiyalarından istifadə edəcək və seçicilərin təxminən 90 faizi elektron vasitələrdən – yoxlama və səssayma cihazlarından istifadə etməklə səs verəcək. Ümumilikdə 3030 seçki məntəqəsi açılacaq, onlardan 2262-də səsvermə elektron, 768-də isə ənənəvi üsulla keçiriləcək. İndiyə qədər Gürcüstan Mərkəzi Seçki Komissiyası oktyabrın 26-da keçiriləcək parlament seçkilərində iştirak edəcək 27 partiyanı qeydə alıb.

**İQTİDAR DA, MÜXALİFƏT DƏ HAZIRLAŞIR**

Ölkədə seçkiqabağı vəziyyət isə gərgin olaraq qalır. 12 ildir ki, məşəli "Gürcü Arzusu - Demokratik Gürcüstan" aparır və onu heç kimə də ötürmək niyyətində deyil. Bunun bir neçə səbəbi var. Birincisi, məğlubiyyət bütün faydaların və təhlükəsizlik risklərinin itirilməsinə bərabərdir. Amerikalılar və avropalılar öz bəyanatları ilə gürcü siyasi elitasının bu gizli qorxusunun atəşinə yağ tökürlər. İkincisi, siyasi sahədə real alternativlər yoxdur.

Müxalifət də öz növbəsində yenidən parlamentdə yer qazanmaqda israrlıdır. Əgər o, Qərb siyasətçiləri ilə uğurlu əlaqələr qura bilsə, o zaman bir növ "SOS düyməsi" rolunu oynaya bilər. Bu rolu Gürcüstan siyasətində çox vaxt Qərbin təsirini təcəssüm etdirən tənqidi media adlandırılan media oynayır.

**PREZİDENTİN DƏYİŞMƏZ MÖVQEYİ**

Gürcüstan Prezidenti Salome Zurabişvilinin seçkilərlə bağlı mövqeyi də maraqlıdır. Seçkiöncəsi vəziyyətə bu mövqe güclü təsir edə bilər. Onun sözlərinə görə, "bu gün ölkədə baş verənlər Gürcüstan üçün faciədir".

Zurabişvili qeyd edir ki, Gürcüstan həmişə öz müstəqilliyini və mədəni dəyərlərini, o cümlədən tolerantlıq və müxtəlifliyi necə qoruyacağını bilir.

## QƏRBİN SEÇKİ XƏBƏRDARLIĞI

"Bu gün təmsil olunan ölkə Gürcüstan deyil, başqasıdır. Bu, işğalçıya boyun əyməyə, işğalçıya güzəştə getməyə hazır olan, bu illərdə Gürcüstana, dövlətə dəstək verənlərdən üz döndərməyə hazır olan ölkədir... Elə bir ölkə görürük ki, demək olar ki, bütün qurumlar məzmununu və müstəqilliyini itirib", - prezident bildirib.

O, "Gürcü Arzusu"nun fəxri sədri Bidzina İvanişvilinin "öz əhalisinə, ölkədəki siyasi qüvvələrə qarşı müharibə elan edən ritorikasını" pisləyib.

Qərblə də Gürcüstanın münasibətləri düzəlmir. Avropa İttifaqı Gürcüstan hökumətinə seçkilərdən sonra müxalifət partiyalarını sıradan çıxarmamaq barədə xəbərdarlıq edib. Yayılan xəbərlərə görə, Qərb oktyabrın 26-da keçiriləcək parlament seçkiləri ərəfəsində Gürcüstanda vəziyyətin inkişafından son dərəcə narazıdır və ölkədə "rəngli inqilab" hazırlayır. Qeyd olunub ki, ABŞ "Gürcü Arzusu" Partiyasının mövqeyini mümkün qədər zəiflətmək üçün Gürcüstan hakimiyyətinə təzyiqləri kütləvi şəkildə artırmaq niyyətindədir.

Aİ-nin baş diplomatı Cozep Borrel Brüsseldə XİN başçılarının qeyri-rəsmi görüşündə deyib ki, qurum Gürcüstan hakimiyyətinin kursundan son dərəcə narahatdır və bu, ölkəni təşkilata üzvlükdən uzaqlaşdırır. "Biz bu ölkənin kursu ilə bağlı son dərəcə və getdikcə daha çox narahat oluruq. Gürcüstan Aİ-dən daha da uzaqlaşır", - Borrel bildirib. Onunla yanaşı, Aİ-nin xarici işlər üzrə nümayəndəsi Peter Stano "Gürcü Arzusu"nun bütün müxalifət partiyalarını qadağan etmək məqsədi daşıyan təkliflərindən narahatlığını bildirib. O, fəal vətəndaş cəmiyyəti, müstəqil media və siyasi plüralizmin Gürcüstanın Aİ-yə daxil olması üçün əsas şərtlər olduğunu vurğulayıb. Stano həmçinin bildirib ki, Gürcüstan hökumətinin hazırkı kursu Aİ-yə inteqrasiya prosesinin dayandırılmasına gətirib çıxara bilər.



Bidzina İvanişvili

## QANUNA TABE OLMAYANLAR

Əksəriyyət hesab edir ki, payızda keçiriləcək parlament seçkiləri "Avropa və Rusiya arasında seçim seçkisi" olacaq. Seçicilərin müharibə və sülh arasında seçim etməli olacaqları bildirilib. Gürcüstan uzun müddət NATO və Aİ-yə qoşulmaq niyyətində olsa da, son illər hökumətin Qərblə münasibətlərində geriləmə var, Tbilisinin Rusiyaya tərəf yönəldiyi görünür. Brüssel Aİ-nin Tbilisi ilə üzvlük danışıqlarına fasilə verib, Birləşmiş Ştatlar Gürcüstanla münasibətləri hərtərəfli nəzərdən keçirməyə başlayıb. Buna Gürcüstan hökumətinin etirazlara baxmayaraq, "xarici agent" qanununu qəbul etməsi səbəb olub.

Gürcüstan hökuməti "xarici qüvvənin maraqlarına xidmət edən" qurumlara dair bilgi bazasını avqustun 1-də formal olaraq işə salıb. Maliyyəsinin 20 faizdən çoxunu xaricdən alan QHT və media qurumlarına bu bazada qeydiyyatdan keçmək üçün bir ay vaxt verilib. Tbilisidə yerləşən Beynəlxalq Ədalətli Seçkilər və Demokratiya Cəmiyyəti (ISFED) də tələbə əməl etməlidir. Bu seçki monitorinqi qrupu, demək olar, bütün maliyyəsini Qərb donor qurumlarından - Aİ-dən, ABŞ Beynəlxalq İnkişaf Agentliyindən (USAID), Vaşinqtonda yerləşən Milli Demokratiya Fondundan və müxtəlif Avropa dövlətlərinin səfirliklərindən alır. Ancaq ISFED bilgi bazasında qeydiyyatdan keçmir. Gürcüstanda 400-dən çox təşkilatla birlikdə, onlar da vətəndaş itaətsizliyi aktı olaraq ictimai şəkildə yeni qaydaya tabe olmurlar.

Bəs seçki proqnozları necədir? Əksəriyyət hesab edir ki, Gürcüstandakı hadisələr "maydan"a gətirib çıxarmayacaq. ABŞ və Aİ Tbilisini sanksiyalarla hədələməkdə davam etsə də, Gürcüstan hökuməti buna sərt reaksiya verməyəcək.

NƏZARƏTSİZ SOSİAL ŞƏBƏKƏ REKLAMLARI İLƏ MÜBARİZƏ APARMAQ MÜMKÜNDÜRMÜ?

# SOSİAL ŞƏBƏKƏLƏRİ BOYKOT EDƏ BİLƏRİKMİ?

Hazırda qlobal sosial platformalar ölkənin reklam bazarının böyük bir hissəsini ələ keçirib. Bu səbəbdən yerli media qurumları çətin vəziyyətlə üzləşib. Ekspertlər hesab edirlər ki, hazırda ölkədə virtual məkanda reklam bazarının tənizmlənməsinə ciddi ehtiyac var.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az




Ötən ay Türkiyədə "Instagram" sosial şəbəkəsinə giriş qadağasının tətbiq edilməsi həm qardaş ölkədə, həm də Azərbaycanda ciddi müzakirələrə səbəb oldu.

Türkiyənin nəqliyyat və infrastruktur naziri sosial şəbəkə nümayəndələri ilə aparılan danışıqlar zamanı Türkiyə qanunvericiliyinə hörmətlə yanaşmanın vacibliyini qeyd etdiklərini bildirdi. Nazir vurğuladı ki, "Instagram" rəsmiləri Türkiyə hökumətinin tələblərini yerinə yetirəcəklərinə dair söz verdikdən sonra qadağa ləğv ediləcək. Nəticədə "Instagram" və "Meta" şirkəti Ankaranın şərtlərini qəbul etdi və bu sosial şəbəkənin ölkə ərazisində fəaliyyət göstərməsinə icazə verildi.

Ümumiyyətlə, Türkiyə də daxil olmaqla, bir çox ölkələrdə sosial platformalarla işlər görülür, razılaşmalar əldə edilir. Azərbaycanda isə bu istiqamətdə addım atılmır. Həqiqətdir ki, hazırda qlobal sosial platformalar ölkənin reklam bazarının böyük bir hissəsini ələ keçirib. Bu səbəbdən yerli media qurumları çətin vəziyyətlə üzləşib. Üstəlik, informasiya təhlükəsizliyi ilə bağlı da risklər hər keçən gün artır.

Maraqlıdır, ölkəmizdə də sosial platformalarla işi təkmilləşdirmək üçün addımlar atılmalıdırmı? Türkiyə təcrübəsindən istifadə etmək mümkündürmü?

### BOYKOT EDƏN ÖLKƏDƏ İSTİFADƏÇİ SAYI ÇOXDURSA...

Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası (AİKTSA) İdarə Heyətinin sədri Elvin Abbasov deyir ki, sosial şəbəkələrlə bağlı bir çox ölkələrdə insidentlər yaşandıqdan sonra ölkə sosial şəbəkəni boykot edir: "Məsələn, Türkiyədə daha öncə "Youtube", "Wikipedia", "X" platforması ilə bağlı da etirazlar olmuşdu. Razılaşma prosesi boykotlardan sonra başladı. Burada əsas məsələ boykot edilən sosial şəbəkənin əhatə dairəsidir. Yəni həmin sosial şəbəkə nümayəndəliyi fəaliyyət göstərdiyi ölkənin internet seqmentini və ya həmin platformadakı payını nəzərə alaraq razılaşmaya gedir. Təbii ki, burada sosial şəbəkənin hansı səbəblə boykot edilməsi də önəmlidir. Amma ən əsası, burada boykot edən ölkənin bu şəbəkəyə qazandırdığı pulun miqdarıdır. Boykot edən ölkədə istifadəçi sayı çoxdursa və daha çox qazandırırsa, bu zaman razılaşmaya gedə bilirlər".

## KÜTLƏ HARADADIRSA, ŞİRKƏTLƏR DƏ REKLAMI ORAYA VERİR

Mütəxəssis təsdiqləyir ki, bu gün sosial şəbəkələr biznes mühitinə çox böyük rəqibdir və sosial platformalar yerli biznesi vurur: "Bu təbii prosesdir. Bu gün dünyada beynəlxalq platformalar bir çox yerli bizneslәri öldürür. Bu, İnformasiya Texnologiyaları sahəsində daha çox hiss olunur. Bu gün sosial media da ölkə daxilində olan media şirkətlərinin qarşısında böyük rəqibdir. Bu, dövrün tələbidir. Kütlə haradadırsa, şirkətlər də reklamı oraya verir".

### "BİZ O SOSİAL ŞƏBƏKƏLƏRƏ BÖYÜK PULLAR QAZANDIRMIRIQ"

"Biz boykot edə bilərikmi?" sualında gəldikdə isə, AİKTSA sədri vurğulayır ki, Azərbaycan internet seqmenti olaraq çox kiçikdir: "Bu kiçik internet seqmenti ilə biz o sosial şəbəkələrə böyük pullar qazandırmırıq. Buna görə də ölkəmizin hər hansı etirazda üstünlük əldə edə bilməsi çətindir. Amma beynəlxalq hüquq müstəvisində biz tələblər irəli sürüb, qalib gələ bilərik. Yəni biz 100 milyonluq ölkə olmadığımız üçün ancaq hüquq müstəvisində bu nümayəndəliklərə etirazımızı bildirə, razılıq əldə edə bilərik. Bu platformalara kim daha çox qazandırırsa, söz haqqı daha çoxdur".



Elvin Abbasov

Foto: Sabir Məmmədov/Global Media Group

### GƏLİRLƏRDƏN AZƏRBAYCANA VERGİ VERİLMƏLİDİR

Sosial media eksperti Fərid Kazımov isə vurğulayır ki, hazırda ölkədə virtual məkanda reklam bazarının tənizmlənməsinə ciddi ehtiyac var: "Bu gün sosial şəbəkələr reklam yerləşdirdiklərinə görə, ölkəmizdə ödənişlər etmirlər. Bu, reallıqdır. Burada məsuliyyət reklam verənlərin üzərinə düşür. Yəni Azərbaycan şirkətləri hər hansısa reklam verərlərsə, onlar müəyyən ƏDV və sair ödənişləri ödəyirlər. Əslində isə bu vergilər reklamların yerləşdirildiyi resursların məxsus olduğu şirkətlər tərəfindən ödənilməlidir. Yəni Azərbaycandan əldə olunan gəlirlərdən Azərbaycana vergi verilməlidir. Dünya ölkələrində bu cür təcrübə var. Bu kimi məsələlər artıq ölkə ərazisində tənzimlənməlidir".

### QAYDALAR MÜƏYYƏNLƏŞDİRİLMƏLİDİR

Mütəxəssis hesab edir ki, sosial şəbəkələrin ölkə ərazisində fəaliyyəti ilə bağlı ciddi addımlar atılmalıdır: "Bəzi sosial şəbəkələr avtoritar qaydalardan istifadə edərək paylaşımlara öz maraqlarına uyğun yanaşırlar. Məsələn, hər hansı aktual məsələlər gündəm olur, sosial şəbəkə rəhbərliyi öz maraqlarına uyğun olmayan fikirləri əngəlləyir, hətta hesablar silinir. Bu yaxınlarda olimpiadada testesteronu çox olan idmançı qadınların iştirakı ilə bağlı neqativ postlar pozulmuş, postları yazan hesablar blok edilmişdi. Bizə qarşı da bəzi laqeydliklər var. Bəzi sosial şəbəkələrdə Azərbaycanın mövqeyinin əleyhinə kifayət qədər resurslar yerləşdirilir, Azərbaycana qarşı tamamilə heç bir normalara sığmayan ittihamlar irəli sürülür. Bu hesabların heç biri blok olunmur. Zənnimcə, bununla bağlı reaksiya verilməlidir. Sosial şəbəkələrin Azərbaycanda fəaliyyəti ilə bağlı qaydalar müəyyənləşməli, müəyyən addımlar atılmalıdır".



Fərid Kazımov

DÖRD XANIMIN TƏHSİLİ ÜÇÜN ÇALIŞAN ATA VƏ HƏDƏFLƏRİNƏ DOĞRU GETMƏKDƏN ÇƏKİNMƏYƏN ANANIN HEKAYƏSİ

# TƏHSİLİN HƏMİŞƏ PRİORİTET OLDUĞU AİLƏ

HAZIRLADI

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



**Minayə Kərimli:** "Hələ də o anın təsiri altında qalmışam. Düşünürəm ki, bu, mənim həyatımın yeni başlanğıcıdır. O sevinci bütün hüceyrələrimlə hiss etdim, özümlə qürur duydum".

"Heç nədən xəbərim yox idi. Gecə saatlarında onun qəfil ağlaması, sevinc içində qışqırmasından sonra bildim hər şeyi. Evimin xanımı, üç qız anası heç kimə heç nə bildirmədən universitetə qəbul üçün sənədlərini veribmiş. Bakı Mühəndislik Universitetinin Beynəlxalq ticarət və logistika ixtisasına qəbul olub. Dörd qızı oxudanlar da cənnətlə mükafatlandırılırmı, görəsən?"

Üç qızından sonra həyat yoldaşının da təhsilinə çıraq tutan ata və hədəfini heç vaxt rəfə qoymayan ana ilə söhbətləşdik.

"Ailə" rubrikamızın qonaqları Təhsil İnstitutunun direktor müavini Kənan Kərimli və həyat yoldaşı Minayə Kərimlidir.

### "BİLMİRDİM Kİ, HƏDƏFDƏ MƏNƏM..."

Minayə xanımın 32 yaşı var, kollec məzunudur. Ali təhsil almaq istəsə də, ailə qurduğu üçün bir müddət bu arzusuna ara vermək məcburiyyətində qalıb: "Böyük qızım 6-cı sinifdə oxuyacaq, ən kiçiyimiz isə 5 yaşındadır, hazırlığa gedəcək. Ali təhsil almaq həmişə planımda olub. Amma qızlarımın anaya daha çox ehtiyacı olduğu yaşlarında onların yanında olmağı təhsilimdən daha vacib hesab etdiyim üçün onlarla özüm məşğul olmaq istədim. Ara-sıra həyat yoldaşımla təhsilim barədə məsləhətləşir, fikir mübadiləsi edirdik. Bunlar baş verərkən artıq məndə onun hər zaman dəstək olacağına əminlik yaranmışdı. Zamanla bağlı konkret müzakirəmiz olmasa da, uzun müddətdir ki, gözlədiyim anın gəldiyini düşünüb, sənədlərimi verdim və arzusunda olduğum tələbə adını qazandım".

Kənan bəy də Minayə xanımın qərarını dəstəkləyib: "Müəyyən yaş qrupu var ki, həmin vaxt ananın övladı ilə vaxt keçirməsinin övladlarımızın inkişafı üçün daha yaxşı olduğunu düşünürdük. Uşaq yaşlarında qızlarımın analarının yanında olması bizim üçün çox vacib nüans idi. Amma biz həmişə təhsil barədə danışırdıq. Son vaxtlar isə təhsillə bağlı suallar daha da intensivləşmişdi. Məndən ixtisasını soruşur, bu ixtisasla bağlı fikirlərimi öyrənirdi. Mən də təriflәyirdim, bilmirdim ki, hədəfdə mənəm".

### "QADININ GÜCÜNƏ ETİNASIZ YANAŞMAYIN..."

Minayə xanım ali təhsil üçün sənədlərini verdiyini gizlədib və həyat yoldaşına sürpriz etmək istəyib. Kənan bəyin bundan nəticələr açıqlandıqda xəbəri olub: "Axşam işdən yorğun gəlmişdim. Qəbul nəticələri elan olunduğu üçün sosial şəbəkələrdə qəbulla bağlı paylaşımlara təbriklərimi yazır, övladları qəbul olan yaxın dostlarımın sevincinə şərik olmağa çalışırdım. Birdən evdə qışqırtı eşitdim, nə baş verdiyini anlamadığımız üçün qızlar da, mən də qorxduq. Minayə qışqırırdı ki, "qəbul oldum!", amma mən yenə də başa düşmürdüm. Elə ağlayırdı ki, artıq narahat olmağa başladım. "Qəbul olmuşam" deyə qışqırır, gah gülür, gah ağlayırdı. 10-15 dəqiqə sakitləşdirməyə çalışdıq. Ondan sonra bəlli oldu ki, universitetə qəbul olub".

Minayə: "Hələ də o anın təsiri altında qalmışam. Düşünürəm ki, bu, mənim həyatımın yeni başlanğıcıdır. O sevinci bütün hüceyrələrimlə hiss etdim, özümlə qürur duydum. Çünki qadın ailə qurdusa, xüsusilə də, üç uşağı varsa, bundan sonra özünü inkişaf etdirib, uğur qazanacağına çox insan inanmır. Mənə də "səni kimdir oxumağa qoyan, get uşaqlarınla məşğul ol", "bundan sonra nəyinə lazımdır oxumaq", "qızlarının oxuyan vaxtı, nə vacibdir oxuyursan?", "onsuz da sənin üçün gecdir, bacara bilməzsən" kimi sözlər deyənlər var idi. Mən də həmişə arzulayırdım ki, o gün gəlsin və onlara sübut edim ki, qadın ailəli olsa da, çoxuşaqlı olsa da, öz üzərində işləyə, arzusunu reallaşdıra bilər. Göstərmək istəyirdim ki, qadının gücünə etinasız yanaşmamaq lazımdır. O qədər qadın var ki, məişət yükünə, stereotiplərə görə arzularını rəfə qaldırıb. Mən onlara işıq olmaq istədim".

> *"Birdən evdə qışqırtı eşitdim, nə baş verdiyini anlamadığımız üçün qızlar da, mən də qorxduq. Minayə qışqırırdı ki, "qəbul oldum!", amma mən yenə də başa düşmürdüm."*

### "AİLƏMİZDƏ TƏHSİLİN BİR BAŞQA YERİ VAR"

Minayə deyir ki, Kənanın onu dəstəkləməyəcəyi ağlının ucundan belə keçməyib: "Təəssüf ki, cəmiyyətdə belə bir fikir formalaşıb ki, qadın ailə qurdusa, onun tək peşəsi əri, uşaqları, onlara yemək bişirmək və evini yığışdırmaqdır. Qadın bu səbəbdən istəklərini kənara qoyur, sadəcə, ailədəki missiyasını yerinə yetirir. Çox şükür ki, Kənan bəy mənə bu mövzuda mənəvi dəstək olub və inanıb. Əgər beynimin bir ucunda Kənanın buna icazə verməyəcəyi hissi olsa idi, bu addımı atmazdım. Ailəmizdə təhsilin bir başqa yeri var, düşündüm ki, uşaqlarının təhsili üçün bu qədər çabalayan ata mənə niyə dəstək olmasın?".

Kənan bəy: "Artıq zəng edib şikayət edənlər var ki, bu xəbərdən sonra onların da həyat yoldaşları oxumaq həvəsinə düşüb (Gülür - A.Ə.). Qohumlarımızda xanımlar var ki, Minayənin bu addımından sonra həvəslәniblər və təhsil almaq istəyirlər. Minayə ilə qürur duyuram. Əlbəttə, əlimdən nə gəlirsə, dəstək verəcəyəm. Bir insanın hədəfi varsa, o hədəf üçün çalışırsa, ona dayaq durmaq, alqışlamaq lazımdır. Qadının gücündən qorxmaq yox, hədəfləri olan qadınla fəxr etmək lazımdır. Nə yaxşı ki, mənim qızlarımın anası məhz belə qadındır".

### "ÜÇÜNCÜ QIZIM XOŞBƏXTLİYİMƏ XOŞBƏXTLİK QATDI"

Kənan bəy və Minayə xanımın ailəsinin özəlliklərindən biri də onların üç qız övladına sahib olmasıdır. Məlumdur ki, Azərbaycan selektiv abortlara görə dünyada birinci yerdədir. Təcrübə göstərir ki, ölkəmizdə birinci uşaq qız olanda, 99 faizi həyatda qalır. İkinci uşaq qız olanda 30, üçüncüdə isə 74 faiz abort edilir. Bu da cins nisbətinin pozulmasına gətirib çıxarır. Kənan bəy qızları ilə bağlı daim paylaşımlar edir, həm də bununla şüuraltı maarifləndirmə işini də həyata keçirdiyini bildirir. Deyir ki, üç qız atası olmaq onun xoşbəxtliyidir: "Səmimi etiraf edim ki, ata olmazdan öncə düşünürdüm ki, övladım oğlan olacaq. Baxırdım ki, ata tərəfimdə hər kəsin oğlu var. O vaxt məndən soruşsa idilər ki, qızın olsa özünü necə hiss edərsən? O zaman mən təsəvvür edə bilməzdim ki, bu qədər xoşbəxt ola bilərəm. Birinci qız mənə xoşbəxtliyin nə olduğunu göstərdi. Allah ardınca ikinci qızı nəsib etdi. Minayə şahiddir ki, bizim evdə heç vaxt qız uşağı ilə bağlı mənfi söhbətlər olmayıb. Üçüncü qızım da xoşbəxtliyimə xoşbəxtlik qatdı. Təəssüf ki, bu gün çox insan üç qız arzulamır. Amma mən düşünürəm ki, Allah məni onlarla mükafatlandırıb. Nə qədər ki, gücüm var, ailəmdəki dörd xanımın da arxasındayam".





Bu mövzuda Minayə xanım da çox həssasdır. Çünki bu stereotiplə ilk dəfə doğulub böyüdüyü ailədə qarşılaşıb: "İstər qız, istər oğlan, fərq etməz, əsas xeyirli övlad olsun. Bu məsələyə daha çox qarşı olanlardan biri mənəm, çünki böyüdüyüm ailədə bu stereotipi yaşamışam. Biz dörd bacıyıq, qardaşım olana qədər bu, davam edib. Valideynlərimiz bizdən narazı olmayıb, amma düşünüblər ki, oğlan mütləq olmalıdır. Övlad arasında cins seçimi etmək qəbuledilməzdir. Kənanla biz qızlarımızla bağlı heç vaxt bunu düşünmədik. Kənanın həyatında qızlarının yeri tam başqadır".

### "TƏBİƏTİN İRADƏSİNƏ MÜDAXİLƏ ETMƏK OLMAZ"

Selektiv abortla mübarizə metodlarına gəldikdə isə, həmsöhbətlərimiz düşünür ki, ananın hamilə olduğu andan etibarən, cütlüklər valideyn olduğunu hiss etməlidir: "Məncə ən böyük yanlış odur ki, ana hamilədir, deyirlər gələcəyin anası, yaxud atası. Əslində, bu uşaq ana bətnindədirsə, artıq cütlüklər ata və anadır. Düşünürəm ki, bu nüans selektiv abortlara da ciddi şəkildə təsir edər. Məsələn, bir var ki hamilə insanı artıq valideyn gözündə görürük və beləcə o, gözlə görmədiyi, əllə tutmadığı uşağın atası, yaxud anası olduğunu daha çox dərk edir. Bununla da onun qarşısına selektiv abort məsələsi gəldikdə, atalığa və ya analığa namizəd kimi deyil, ata kimi, ana kimi qərar verir. Demirəm bununla da hər kəs selektiv abortdan uzaq duracaq, amma ən azından bir sıra adamlar bu yoldan çəkinər".

Kənan bəy: "İkinci səbəb cəmiyyətdəki stereotiplərdir. Mənə üç qızım olduğu üçün təəccüblənənlər, oğul övladı arzulayanlar olub. Bu, məni heç vaxt narahat etməyib. Hətta "Facebook"da statuslarıma diqqət etsəniz, hər zaman üç qızımın olduğunu, onlarla fəxr etdiyimi göstərməyə, eşitdirməyə çalışmışam. Cəmiyyətdəki bu stereotipləri qırmaq üçün əlimdən gələni edirəm. "Filankəsin oğlu yoxdur, sonsuzdur" kimi absurd fikirlərlə mübarizə aparmalıyıq. Azmı insan görmüşük üç oğlu var, amma "sonsuz"dur? Övlad ya xeyirli olur, ya da xeyirsiz. Bu isə oğul yaxud qız olduğu üçün baş vermir. Qızın da öz yeri var, oğulun da. İnsanlara nə dərəcədə səhv etdiklərini çatdırmaq lazımdır. Qız uşağını istəməyən ata özü bir anadan dünyaya gəlməyibmi? Həyatında heç vaxt bacısına ehtiyac duymayıbmı? Düşünün ki, hamımız deyək ki, qızımız olmasın, hamının oğlu olsun. Dünya necə yer olar? Ona görə də təbiətin iradəsinə müdaxilə etmək olmaz".

### ONLARIN HƏR YAŞININ ÖZ GÖZƏLLİYİ VAR

Cütlüyümüz qızlarının tərbiyəsində diqqət etdikləri məqamları da bizimlə bölüşdü. Kənan bəy deyir ki, tərbiyə, eləcə də təhsil ana bətnindən başlayır, hamiləlik dövründə valideynlərin davranış və yaşayış tərzi uşağın formalaşmasında çox ciddi rol oynayır: "Uşaq dünyaya gəldikdən sonra onunla vaxtı düzgün keçirmək lazımdır. Onunla oyun oynamağın özü belə təhsildir, tərbiyədir. Şərt deyil ki, uşağa ancaq ibrətamiz sözlər deyəsən, normal ünsiyyət belə, tərbiyədir. Uşaq elə bir nemətdir, elə bir dəyərdir ki, onu heç nə ilə əvəz edə bilməzsən. Onların hər yaşının öz gözəlliyi var. Məsələn, biz Minayə ilə beş yaşındakı qızımızın iki yaşındakı şəklini görəndə uşaqlığı üçün darıxırıq. Ona görə düşünürəm ki, iş və digər fəaliyyətlər həmişə var. Amma iki yaşında uşaqla keçirdiyin günlərin dadını, ondan aldığın zövqü o, beş yaşında olanda ala bilməyəcəksən. Bilirəm ki, indi - beş yaşında onunla yaşadığımız gözəlliklər də öz növbəsində yetkinlik dövründə bizim üçün əlçatmaz olacaq. Məncə, maksimum dərəcədə uşaqlarla çox vaxt keçirmək, hər yaşın verdiyi üstünlükləri düzgün dəyərləndirmək lazımdır".



Fotolar: Rüfət Mikayılov/Global Media Group

## "VALİDEYN UŞAĞA BALIQ TUTMAĞI ÖYRƏTMƏLİDİR"

Minayə: "Kənan hədsiz dərəcədə mərhəmətli, uşaq sevən insandır. Mən isə əksinə, nizam-intizamlıyam, daha çox nəzarət edirəm. Qızlarımla aramızda xüsusi bağ var. Amma müəyyən məsələlər var ki, çərçivədən çıxa bilmərik. Məsələn, onların yaşlarına uyğun olmayan hansısa mövzu olduqda məsələnin çox dərinliklərinə getmədən sualları cavablandırmağa çalışıram. Qızlar bu cür suallar verəndə, onlar üçün tez olduğunu bildirirəm, hansı səbəblərdən yaşlarına uyğun mövzu olmadığını izah etməyə çalışıram. Təbii ki, qadağalar daha çox diqqət cəlb edir. Bu səbəbdən qadağa olmadan, mövzulara sərhəd çəkmədən izah edirik. İncəliklər var ki, onlara çox diqqət edirik".

Kənan bəy deyir ki, uğursuz uşaq yoxdur, uğursuz valideyn var: "Təhsilin önəmindən həmişə danışırıq, amma bu o demək deyil ki, uşağın marağını boğub onu sevmədiyi başqa sahəyə, valideynin istədiyi sahəyə yönəldək. Məsələn, valideynlər var ki, deyir mənim arzum qızımın həkim olmasıdır, o, mütləq həkim olmalıdır. Bu, düzgün yanaşma deyil. Uşağın istəklərini boğaraq köhnədən qalmış düşüncə ilə valideyn öz reallaşmamış arzusunu uşağın üstündə sınamamalıdır. Bununla o, uşağı əsarətə almış olur və edə biləcəyin ən böyük pisliyi edir. Uğursuz uşaq yoxdur, uğursuz valideyn var. İnsan dünyaya tərtəmiz, pak gəlir. Hər kəsin ağlı, zəkası eyni səviyyədə olmaya bilər, amma mütləq hər bir insanın uğurlu ola biləcəyi bir sahə vardır. Valideyn məhz bunu kəşf etməyi bacarmalıdır. Daha sonra isə bu istiqamətdə bacarıqların formalaşmasında dəstək olmalıdır. Bir sözlə, valideyn uşağa balıq verməli deyil, balıq tutmağı öyrətməlidir".



UNİVERSİTETLƏRƏ QƏBUL OLAN TƏLƏBƏLƏR NƏ KİRAYƏ MƏNZİL TAPA BİLİRLƏR, NƏ DƏ BOŞ YATAQXANA

# UNİVERSİTET YATAQXANALARI BU İL DƏ TƏLƏBƏSİZ QALACAQ

Yeni tədris ilinə sayılı günlər qalıb. Rayonlardan Bakıya üz tutan tələbələri maraqlandıran ilk sual yataqxana ilə təmin olunub-olunmayacaqlarıdır. Amma belə görünür ki, universitetlərin bu il də onlara müsbət cavab vermək imkanları olmayacaq.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




"Qızım Bakıdakı universitetlərin birinə qəbul olub. Universitetə yataqxana üçün müraciət etdik. Onlar isə bizə yataqxanalarında məcburi köçkün ailələrinin yaşadığını bildirdilər. Kirayə ev axtarmaq məcburiyyətində qaldıq. Amma kirayə mənzil tapmaq da çətindir. Bakının ən ucqar rayonlarında təklif olunan evlərin belə qiymətləri əl yandırır".

Bu fikirlər sosial şəbəkələrdə yazılan şikayətlərdəndir. Övladları universitetə daxil olan valideynlər nə kirayə mənzil tapa bilir, nə də yataqxana. Halbuki bir neçə ildir işğaldan azad olunmuş ərazilərimizə köç həyata keçirilir. Lakin şikayətlərdən də görünür ki, hələ də yataqxanalar tələbələrin istifadəsinə tam şəkildə verilməyib.

Biz də sorğu keçirərək hansı universitetlərin yataqxanalarının tələbələrin istifadəsi üçün yararlı olub-olmadığını araşdırdıq.

### "TƏLƏBƏLƏRİN 10-15 FAİZİNİ YERLƏŞDİRƏ BİLİRİK"

Bakı Dövlət Universitetinin mətbuat xidmətindən bildirildi ki, vaxtilə təhsil ocağının məcburi köçkünlər məskunlaşmış yataqxanasında hazırda qalan yoxdur. Çünki ora qəzalı, tam yararsız vəziyyətdədir: "Universitetimizin hər cür şəraitlə təmin olunmuş tələbə evi var. Bakı Dövlət Universiteti üçün yeni yataqxanaların tikilməsi ilə bağlı müzakirələr aparılır".

Memarlıq və İnşaat Universitetinin Ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nicat Abdullayevin sözlərinə görə, bu ali təhsil müəssisəsinin yataqxana kompleksinin beş korpusunun dördündə məcburi köçkünlər məskunlaşıb. Yalnız bir korpus universitetin tələbələrinin ixtiyarındadır: "Tələbələr bizə yataqxana üçün müraciət etdikdə yalnız 10-15 faizini yerləşdirə bilirik. Digərlərinə isə "yox" cavabı vermək məcburiyyətindəyik. Məcburi köçkünlərin məskunlaşdığı binalar təmirsiz formada istismarda olub. Hazırda orada yaşamaq mümkün deyil. Həmin binalar hələ tam boşaldılmayıb. Hər binada 5-6 nəfər məcburi köçkün yaşayır".

### "SÖKÜLÜB YENİDƏN TİKİLMƏLİDİR"

Şöbə müdiri məcburi köçkünlər çıxarıldıqdan sonra universitetin planlarından da bəhs etdi: "Universitet olaraq həmin binaların boşaldılmasını istəyirik. Elm və Təhsil Nazirliyi də bu məsələni gündəmdə saxlayır. Həmin binaları təmirlə düzəltmək mümkün deyil, sökülüb yenidən tikilməlidir. Maliyyə mənbələri axtarırıq ki, bu yataqxanalar inşa edilərək yenidən tələbələrimizin ixtiyarına verilsin. Düşünürük ki, yaxın gələcəkdə hazırda həmin yataqxanalarda məskunlaşmış vətəndaşlarımız da doğma yurdlarına köçürüləcək".

Azərbaycan Texniki Universitetindən bildirildi ki, AzTU-nun yataqxana binalarında 1988-1990-cı illərdən qaçqın və məcburi köçkün ailələri məskunlaşıb. Son illərə qədər binalarda 124 ailə yaşayırdı: "Torpaqlarımız işğaldan azad edildikdən sonra 10 ailə doğma yurdlarına köçürülüb. Qalan 114 ailə hazırda da həmin yataqxanalarda yaşayır. Yataqxana kompleksi tamamilə yararsız vəziyyətə düşüb. Binaların vəziyyəti hər hansı yaşayış standartlarına cavab vermir. Köçürülmə prosesi tam yekunlaşdıqdan sonra yataqxanaların təmir olunması və ya sökülərək yenidən tikilməsi ilə bağlı qərar veriləcək".

Azərbaycan Dövlət Pedaqoji Universitetindən bildirildi ki, universitetin Bakı şəhərində beş yataqxanası var. Onlardan yalnız biri tələbələrin istifadəsindədir. Yataqxanalardan dördündə ümumilikdə 1 603 nəfərdən ibarət 443 məcburi köçkün ailəsi məskunlaşıb: "Hələlik yataqxanalarımızdan heç biri boşaldılmayıb. Onların köçürülməsi istiqamətində aidiyyəti dövlət qurumları tərəfindən iş aparılır".

## "CƏMİ İKİ AİLƏ KÖÇÜRÜLÜB"

Azərbaycan Dillər Universitetinin yataqxanalarında da vəziyyət fərqli deyil. Həm oğlanlar, həm də qızlar üçün nəzərdə tutulan yataqxanalarda məcburi köçkünlər yaşayır: "Qızlar yataqxanasında 18 ailə var. Köçürülmə başlayıb, gedənlər var. Lakin tam olaraq tələbələrin ixtiyarına verilməyib. Yataqxana tamamilə boşaldıldıqdan sonra bu addım atılacaq. Oğlanlar üçün yataqxanada isə tələbələr yaşamır. Həm məcburi köçkünlər, həm də digər insanlar məskunlaşıb. Məcburi köçkünlərdən cəmi iki ailə köçürülüb. Köçürülənlərdən birinin yerinə qazi yerləşdirilib. Digər otaqda isə qapı qonşusu məskunlaşıb. Bir mənzildə isə yanğın baş verdi. Sakini köçürdülər, hazırda yararsız vəziyyətdə olduğu üçün yaşayış mövcud deyil".

## MƏCBURİ KÖÇKÜNLƏR GEDİB, AMMA YATAQXANA YARARSIZ VƏZİYYƏTDƏDİR

Azərbaycan Tibb Universitetinin mətbuat katibi Günel Aslanova dedi ki, universitetin 1 000 nəfərlik dörd yataqxanası var. Məcburi köçkünlərin məskunlaşdığı yataqxana isə boşdur: "Həmin bina hazırda yararsız vəziyyətdədir. Gələcəkdə əsaslı şəkildə təmir olunması düşünülür".

Dövlət İdarəçilik Akademiyasından verilən məlumata görə, hələ ki, yataqxanadan köçürülən məcburi köçkünlər yoxdur: "Amma dövlət proqramının bir hissəsi olaraq köçürülmə həyata keçiriləcək. Sonra isə tələbə yataqxanası kimi təmir-bərpa işləri aparılıb, istifadə olunacaq".

### SƏLAHİYYƏT UNİVERSİTETLƏRDƏ DEYİL

Azərbaycan Dövlət İqtisad Universitetinin İctimaiyyətlə Əlaqələr şöbəsinin müdiri Elnarə Məmmədova qeyd etdi ki, yataqxanada məcburi köçkünlər var və hələlik köçürülməyiblər: "Binanı müvəqqəti olaraq Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin balansına vermişik. Universitetimizin gələcək prioritetlərində məcburi köçkünlər getdikdən sonra yataqxananın sökülüb yenidən inşa olunması var".

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetindən də bildirildi ki, yataqxanaları Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin balansındadır.

### ONLAR ÜÇÜN EVLƏR AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ İNŞA OLUNUR

Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsindən isə sorğumuza cavab olaraq bildirildi ki, müxtəlif təyinatlı obyektlərdə, o cümlədən yataqxanalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri mərhələli şəkildə yeni mənzillərlə təmin edilir. Bu günə qədər 320 mindən çox məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb: "Onların arasında tələbə yataqxanalarında müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri də var. Orta və ali təhsil müəssisələrinə məxsus yataqxanalarda məskunlaşmış ailələrin bir qismi köçürülsə də, bir qismi hələ də bu tipli obyektlərdə yaşayır. Çünki onlar üçün mənzillər yalnız işğaldan azad edilmiş ərazilərdə tikilir. Məcburi köçkünlərin öz daimi yaşayış yerlərinə mərhələli qaydada qayıdışı zamanı ilk növbədə ən ağır vəziyyətdə, eləcə də tələbə yataqxanalarında yaşayanlar yeni yaşayış sahələri ilə təmin olunurlar".



Nicat Abdullayev
Elnarə Məmmədova
Günel Aslanova

# "ATTESTATLA QƏBUL" TƏLƏSİNƏ DÜŞƏNLƏR

Qəbul imtahanlarında uğurlu nəticə göstərə bilməyən abituriyentlər Türkiyə, Ukrayna və Rusiyanın aşağı reytinqli, tanınmayan ali məktəblərinə daxil olmaq yolu tuturlar. Vasitəçi şirkətlər də gəncləri diplomu ölkəmizdə tanınmayan, attestatla qəbul aparan universitetlərə şirnikləşdirirlər.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az




Ali məktəblərə qəbul imtahanlarının da, ixtisas seçimlərinin də həyəcanı başa çatdı. Universitetlərə qəbul ola bilməyənlər kədərlənməklə yanaşı, tələbə olmaqdan ötrü alternativ yollar axtarışındadırlar. Bu cəhdlər təkcə boş qalan plan yerlərinin ixtisas seçimi ilə məhdudlaşmır, daha çox xarici ölkələrin ali məktəblərində oxumaq arzuları ilə meydana çıxır. Elm və Təhsil Nazirliyinin akkreditasiya siyahısında olmayan, Türkiyə, Ukrayna və Rusiyanın aşağı reytinqli, tanınmayan ali məktəblərinə daxil olmaq üçün yarış başlayır. Vasitəçi şirkətlər də gəncləri diplomu ölkəmizdə tanınmayan, attestatla qəbul aparan universitetlərə şirnikləşdirirlər. Təbii ki, bu tora düşənlər də az deyil.

Elm və Təhsil Nazirliyinin Təhsildə Keyfiyyət Təminatı Agentliyi bəyan edib ki, xaricdə təhsil sahəsində, o cümlədən tanınma prosedurları ilə bağlı heç bir şirkətlə əməkdaşlıq etmir və bu şirkətlərin fəaliyyətlərinə görə heç bir məsuliyyət daşımır: "İddiaçılara hər hansı şirkət və ya şəxslər tərəfindən verilən vəd tanınma müddətində heç bir rol oynamır".

Təhsil məsələləri üzrə ekspertlər xaricdə təhsilin zərərli tərəflərinin də olduğunu gizlətmirlər.



Günay Əkbərova



Vaqif Fətullayev

## "SADƏCƏ ATTESTATLA QƏBUL" TƏKLİFLƏRİ

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın katibi Günay Əkbərova hesab edir ki, öz ölkəmizdə imtahandan uğur qazanmayan gənc başqa ölkədə də buna müvəffəq olmur: "Valideyn fikirləşir ki, övladım imtahandan keçmədisə, xaricdə "sadəcə attestatla qəbul" təkliflərinə yönəlməliyəm. Təcrübəmizdən görürük ki, bu cür gənclərin 90%-i həmin ölkələrdəki təhsil müəssisələrində illərlə vaxt itirib, sonra da diplom ala bilmədən ölkəmizə geri qayıdırlar". G.Əkbərova bildirir ki, bu cür universitetlərin bəziləri dərs keyfiyyətinin aşağılığına və bir çox fərqli faktorlara görə dünya ölkələri tərəfindən tanınmır, ölkəmizdə də akkreditasiyası yoxdur: "Belə universitetlərin hər zaman bir işbaz dəstəsi olur və bir çox gözboyayıcı vədlərlə valideynləri "yanlış yön"ə çəkməyi bacarırlar. Valideyn fikirləşir ki, problemsizdir. Gənc bitirib qayıdır, lakin diplom tanınmır. Nəticədə valideynlər verilmiş vədlərin qurbanına çevrilməklə yanaşı, öz övladlarının da həyatını alt-üst edirlər. Dövlət qurumları tərəfindən bu cür universitetlərin siyahısının açıq qaynaqlı paylaşılmasına baxmayaraq, yenə də maariflənməyən onlarla valideyn bu "tələ"yə düşür". İŞ katibinin fikrincə, bəzən də valideynlər əsgərlik yaşına çatmış övladlarını müəyyən müddətlik məcburi hərbi xidmətdən yayındırmaq məqsədi ilə bu yollara baş vururlar".

### "NƏ OLURSA OLSUN, DAXİL OLUM..."

Təhsil məsələləri üzrə ekspert Vaqif Fətullayev hesab edir ki, ölkədə ali məktəblərə qəbul olmayan gənclərin xaricdə təhsilə can atmasının əsas səbəbi stereotiplə - valideynlərin və ya qohumların qınağı ilə bağlıdır: "İmtahanlarda uğur qazana bilməyən gənclər özlərini bir qədər təzyiq altında hiss edirlər. "Nə olursa-olsun, attestatla da olsa, lap diplomu tanınmasa belə, istənilən universitetə daxil olum", - deyə düşünürlər. Digər səbəb oğlanların hərbi xidmətdən müəyyən qədər möhlət almaq istəməsi ilə bağlıdır".

Ekspertin fikrincə, xarici ölkələrdə yüksək reytinqli universitetlərə qəbul almaq bir qədər çətindir: "O ali məktəblərin dil bilgisi və müəyyən qəbul şərtləri var. Onların şərtlərini ödəyə bilmədikləri üçün əksər gənclər az reytinqli universitetlərə daha asan qəbul olmaq yolunu seçirlər. Məsələn, attestatla Türkiyə, Ukrayna və ya Rusiyada tanınmayan, kollec səviyyəli ali məktəblərə daxil olurlar. Sonra da diplomları tanınmır. Onlar mütəmadi olaraq "təhsil aldıqları" ölkədə olmur, tədris dilini də bilmirlər".

V.Fətullayevin fikrincə, belə halların qarşısını almaq üçün güclü maarifləndirməyə ehtiyac var: "İnsanlar başa düşməlidir ki, ali məktəbə qəbul olmamaq, diplom qazanmamaq həyatın sonu deyil, başqa alternativlər var. Onlar peşə təhsilinə yönələ, yaxşı peşə öyrənə bilərlər. Hesab edirəm ki, bu istiqamətdə "Məsləhət xidmətləri"nin təkmilləşdirilməsi yaxşı olar. Həmçinin 9-11 siniflərdə bu yöndə maarifləndirmə işi təşkil olunmalı, valideynlərə təlimlər keçirilməlidir".

## MÖVCUD BAZARA UYĞUN PEŞƏLƏR AXTARILMALIDIR

Azərbaycan "Türkiyə Universitetləri Məzunları" İctimai Birliyinin (TUMİB) sədri Tural Əfəndiyevin sözlərinə görə, Türkiyənin reytinq sıralamasında ilk yerdən son yerə qədər yer alan universitetlərin diplomu ölkəmizdə tanınır: "Türkiyə universitetlərində əyani təhsil alan Azərbaycan vətəndaşları məzun olduqdan sonra diplomları birmənalı olaraq tanınır. Əgər distant formada təhsil alıbsa, Azərbaycan qanunvericiliyinə görə diplom tanınmır. Düzdür, Türkiyə universitetlərinə attestatla, daha rahat imtahan formatları ilə də qəbul aparılır. Ancaq tələbənin oxumaq qabiliyyəti aşağıdırsa, o, Türkiyə universitetlərindən rahatlıqla məzun ola bilmir. Çünki qəbul olmaq nə qədər asandırsa, universiteti bitirmək o qədər çətindir. Çox rastlaşılan haldır: tələbə 8 il ilişib qalır, amma ikinci kursu belə tamamlaya bilmir".

Rusiya və Ukrayna universitetlərinə gəlincə, TUMİB sədri bildirir ki, əgər həmin universitetlər Elm və Təhsil Nazirliyinin akkreditasiya siyahısında yer alıbsa, onların da diplomları tanınır. Amma müəyyən proseslərdən keçməlidir: "Məlumdur ki, Rusiya və Ukrayna universitetlərinin təhsilində hələ də xoşagəlməz hallar mövcuddur. Tələbələr universitetlərə adlarını yazdırır, hər hansı "şirinlik" müqabilində 4 ildən sonra diplom alırlar. Müəyyən dövrdə ora gedən insanlar olur, təhsil aldıqları dili bilmirlər, ölkədə olmurlar. Təbii ki, onların diplomları tanınmayacaq".

T.Əfəndiyev imtahanlardan kəsilən və aşağı nəticə göstərən gənclərə məsləhət görür ki, peşə təhsilinə üz tutsunlar: "Əksər peşə sahələrində ciddi problemlər yaşanır. Avtomobil ustası, aşpaz, şirniyyat ustası peşələrinə ciddi ehtiyac var".



Tural Əfəndiyev

İXRAC POTENSİALIMIZ ARTSA DA, XARİCİ BAZARLARA ÇIXIŞ İMKANIMIZ MƏHDUDDUR

# AQRAR MƏHSULLARIN İXRACINDA MİLYARDLIQ HƏDƏF

Meyvə-tərəvəz ixracımız əvvəlki dövrlərə nisbətən azalıb. Ekspertlər düşünürlər ki, həm gəlirləri, həm də həcmi artırmaq üçün müəyyən addımlar atılmalıdır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2024-cü ilin yanvar-iyul ayları ərzində Azərbaycan 383 milyon 863 min dollar dəyərində 368 min 549 ton meyvə-tərəvəz ixrac edib. Dövlət Gömrük Komitəsinin apardığı hesablamalara görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkədən ixrac edilən meyvə-tərəvəzin dəyəri dörd faiz və ya 16.3 milyon dollar, həcmi isə 7.2 faiz və ya 28.4 min ton azalıb. 2023-ci ilin ilk yeddi ayında Azərbaycan 400 milyon 118 min dollar dəyərində 396.9 min ton meyvə-tərəvəz ixrac edib.

Hesabat dövründə əsas ixrac olunan meyvə-tərəvəz məhsulları 139.5 milyon dollar dəyərində 116.9 min ton tomat, 54.5 milyon dollar dəyərində 8 844 ton meşə fındığı, 27.8 milyon dollar dəyərində 35.4 min ton xurma, 23.6 milyon dollar dəyərində 35.4 min ton alma, 20.4 milyon dollar dəyərində 48.2 min ton kartof, 3.3 milyon dollar dəyərində 3 651 ton nar olub.

Statistik rəqəmlərə nəzər saldıqda Azərbaycanın meyvə-tərəvəz ixracı əvvəlki dövrlərdə artan templə inkişaf etsə də, hazırda azalma müşahidə olunur. Azalmanın səbəbləri nədir? Bu sahədə perspektivlərimizi necə inkişaf etdirə bilərik? Meyvə-tərəvəz ixracından əldə etdiyimiz gəlirləri bir milyard dollara qaldır-maq mümkün-dürmü?

Allahverdiyevin sözlərinə görə, hazırda meyvə-tərəvəz ixracı barədə konkret fikir bildirmək çətindir. Çünki bundan sonrakı dövr üçün hər şey dəyişə bilər: "Qeyd edilən statistik rəqəmlər müvafiq dövr üçün xeyli yaxşı göstəricilərdir. Amma unutmamalıyıq ki, 2024-cü il hələ bitməyib və ixrac davam edir. İlin sonuna qədər meyvə və tərəvəz məhsulları ixrac olunacaq. Məsələn, gec yetişən almalar, armudlar hələ də yığılmayıb. Onlar bundan sonra yığılacaq və xarici ölkələrə ixrac olunacaq. Kartof da hələ ki, yığılma mərhələsindədir. Digər tərəvəzlər də var ki, onların yığılma dövrü qarşıdadır. Bu səbəbdən, rəqəmlərin artan templə davam edəcəyini söyləyə bilərik".

Sədrin fikrincə, Azərbaycanda kənd təsərrüfatı sahəsi ildən-ilə inkişaf edir. Həmçinin ixrac potensialımız da artırılır: "Ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalı üçün kifayət qədər perspektiv mövcuddur. Həmçinin statistik rəqəmlərə baxdıqda görürük ki, onlar ildən-ilə daha da artır. Dövlət tərəfindən də bu sahənin inkişafı üçün ciddi tədbirlər görülür. Fermerlərə subsidiyalar, yardımlar edilir. Bu da təbii ki, öz bəhrəsini verir. Daha yeni, müasir bağlar salınır, istixanalar tikilir, həmçinin müasir suvarma sistemlərindən istifadə olunur. Bu da məhsuldarlığın artmasına gətirib çıxarır".




## "İXRAC HƏCMİ DAVAMLI OLARAQ ENƏCƏK"

İqtisadçı Pərviz Heydərov isə ixracın həcm və gəlir cəhətdən azalması səbəblərindən danışdı: "Ölkəmizdən iyul ayına qədər meyvə-tərəvəz ixracının azalması elə də narahat olunacaq məsələ deyil. Bunu öncədən gözləyirdik. Azalmanın səbəblərindən biri odur ki, Azərbaycanın meyvə-tərəvəz ixracında ən böyük pay sahibi Rusiya istiqamətidir. Rusiya bazarlarındakı vəziyyətlə əlaqədar ixrac dəyərində və həcmində azalma müşahidə edilir. Rusiya-Ukrayna müharibəsinin də burada rolu böyükdür. Əgər müharibə uzun müddət davam edərsə, ölkəmizdən qeyri-neft məhsullarının ixracı azalmaqda davam edəcək. Ümumən ölkə üzrə ixracın həcmi davamlı olaraq enəcək".



### İXRAC DAVAM EDİR

Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu Publik hüquqi şəxsin İdarə Heyətinin sədri Elmar


Elmar Allahverdiyev

## TÜRKİYƏ, YAXIN ŞƏRQ BAZARLARINA ÜZ TUTMALIYIQ

P.Heydərovun sözlərinə görə, hazırkı vəziyyət o qədər də ürəkaçan və ümidverici deyil. O səbəbdən bu problemlərdən çıxış yolu axtarılmalıdır: "İxrac sahəsində həm həcm, həm də dəyər cəhətdən rəqəmlərdə artımlar görmək istəyiriksə, mütləq dərəcədə əlavə bazarlara çıxışımızı təmin etməliyik. Əks təqdirdə bu sahədə mövcud geriləmə davam edəcək. Təbii ki, bu da ölkə iqtisadiyyatında qarşıya qoyulan prioritetlərə çatmağımıza əngəl olacaq. Qeyri-neft məhsulları üzrə sadəcə Rusiya bazarından olan asılılığımız gec-tez öz mənfi təsirlərini göstərməli idi. Hazırda da həmin halları müşahidə edirik. O səbəbdən belə hadisələr baş verməmişdən öncə alternativ bazarlar barəsində düşünməli lazım idi".

### "ALTERNATİV BAZARLARIMIZ YOXDUR"

Gəlirlərimizin milyard dollar həddini keçməsi məsələsinə gəldikdə isə iqtisadçı bildirdi ki, real düşünsək, bu, hələlik mümkün deyil: "Səbəbi odur ki, alternativ bazarlarımız yoxdur. Asılı olduğumuz bazar çöküş yaşayır. Rusiya bazarı hazırkı dövrdə məhsul ixracı üçün heç də səmərəli deyil. Meyvə-tərəvəz sahəsində Türkiyə, Yaxın Şərq ölkələri və digər perspektivli bazarlara çıxış imkanlarımız barədə düşünməli və mütləq şəkildə daha da gec olmadan müvafiq addımlar atmalıyıq. Təəssüf ki, indiyə qədər bununla bağlı konkret siyasət tətbiq edilməyib. Düşünürəm ki, bu barədə gecikmişik".


Pərviz Heydərov

# ARALIQ DƏNİZİNİN BALACA CƏNNƏTİ



Malta kiçik ada dövlətidir. Xəritədə qabarıq görünmür, lakin bütün il boyu isti, rahat iqlimi, təmiz mavi dənizi, zəngin tarixi və mehriban sakinləri ilə dünyanın hər yerindən turistlərə qucaq açır.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

“Maltaya ilk səfərinizdir? Ölkəmizə xoş gəlmisiniz. İnanıram ki, zövq alacaqsınız...” Hava limanından bizi paytaxt Vallettaya aparan güləruz taksi sürücüsü ilə qısa dialoqdan sonra ilk diqqətimizi çəkən ada-şəhərin təmiz küçələri olur: “Bu şəhərdə ideal təmizlik var”, - deyə bir-birimizə söyləyirik.

Aralıq dənizinin balaca cənnəti bizi belə xoş qarşılayır...

Malta kiçik ada dövlətidir. Xəritədə qabarıq görünmür, lakin bütün il boyu isti, rahat iqlimi, təmiz mavi dənizi, zəngin tarixi və mehriban sakinləri ilə dünyanın hər yerindən turistlərə qucaq açır.

Ada Beynəlxalq Risk Hesabatı (BMT) tərəfindən yaşamaq üçün ikinci ən təhlükəsiz ölkə seçilib. Bunun bir səbəbi də adada miqrantların olmamasıdır. “Qonşu Siciliya ilə müqayisədə adada cinayət nisbəti olduqca aşağıdır. Hətta ictimai yerlərdə cibgirlik nadir hallarda qeydə alınır: oğurluq daha çox park edilmiş avtomobillərdən olur. Bununla belə, böyük məbləğdə pul və sənədlərin oteldə təhlükəsiz saxlamaq məsləhət görülür”, - deyə yerli sakinlər bildirirlər.

Maltada iqtisadi çətinlik yoxdur. Demək olar ki, hamının evi var. Maltalıların əksəriyyəti xristianlığı qəbul edib. “Yerlilər çox ünsiyyətcildir. Əcnəbilərdən harada işlədiklərini, nəyə maraqlı olduqlarını, hansı məqsədlə gəldiklərini soruşmaqdan həzz alırlar”, - deyə eşitdiyimiz fikirlər səfər boyu özünü doğruldur.

Malta 150 ildən artıq ingilis müstəmləkəsi olub. Hazırda adanın iki rəsmi dili var: ingilis və Malta dilləri. Ada əhalisinin əksəriyyəti ingilis dilində danışır və adanın məşhur qəzetlərinin çoxu ingilis dilində nəşr olunur. Dil məktəblərinə artan tələbata görə, üstəlik İngiltərə ilə yerli tarixi əlaqələr adanı Avropanın aparıcı dil mərkəzlərindən birinə çevirib.

## MƏDƏNİ CƏNNƏT

Malta - mədəniyyət və tarix, əyləncə və istirahətin unikal vəhdətidir. Adanı “mədəni cənnət” də adlandırırlar. Turistlər burada qədim məbədlərdən, orta əsr şəhərləri və kilsələrindən, möhtəşəm paytaxt qalalarından başlayaraq heyrətamiz liman mənzərələri ilə tanış olur, köhnə və yeninin maraqlı birləşməsini görür, heç vaxt tərk etmək istəmədikləri ritm tapa bilirlər. Sahibkarlar Maltaya investisiya yatırmaqla dünyanın 165 ölkəsinə səyahət hüququ verən pasporta sahib olurlar. Adada ev almaq da yaşamaq izni almağa kömək edir.

Ölkədə tibb yaxşı inkişaf edib. Tibbi turizm tətbiq olunur, cavanlaşma və arıqlamağa yönəlmiş sağlamlıq turları populyardır.

## İSTEHKAM ŞƏHƏRİ

Paytaxt Valletta Maltanın əsas turizm mərkəzidir. 16-cı əsrdə Müqəddəs İoann ordeninin cəngavərləri tərəfindən qurulmuş istehkam şəhəridir. Şəhər YUNESKO-nun Ümumdünya İrsi Siyahısına daxildir. Valletta Avropada inkişafı əvvəlcədən planlaşdırılmış layihələrə əsasən qurulan ilk şəhərdir.

Zaman-zaman ölkənin mədəniyyətinə ingilislər, ərəblər, yunanlar, normanlar və ispanlar təsir ediblər. Şəhərin küçələrini gəzdikcə müxtəlif mədəniyyətlərin izləri hopmuş memarlıq nümunələrini seyr edirsən. Ən çox maraq doğuran isə heç yerdə rastlaşmadığın rəngli eyvanlardır.

“Ada zaman-zaman Hollivud kino sənayesinin çəkiliş meydanına çevrilib. “Qladiator”, “Taxtların oyunu”, “Kapitan Fillips” və s. filmlər Malta adalarında çəkilib”, - deyə bələdçilər filmlərin çəkildiyi məkanlarla turistləri tanış edirlər.

Adanın yayı isti, qışı ilıq keçir. 50 ildən bir qar görəndə sevinirlər. Bu iqlim turistlərə ilin bütün fəsillərində Malta adalarını (Malta, Qozo və Komino) kəşf etməyə və açıq havada vaxt keçirməyə sövq edir.

Malta dəniz tətili üçün əfsanəvi adadır. Yay mövsümünün başlaması ilə hər il minlərlə turist Maltaya axışır. Yerlilərdən “Çimərliyə necə getmək olar?” deyə soruşsanız, “Hansı? Ağ, qırmızı və ya çəhrayı qumlu, yoxsa çınqıllı, qayalı və ya “vəhşi” çimərliyi istəyirsiniz?” sözlərini eşidəcəksiniz.

Adada mükəmməl nəqliyyat sistemi var. Siz avtobusa minə, taksi sifariş edə, avtomobil icarəyə götürə və ya Sliemadan Vallettaya üzən gəmiyə və ya Gozo adasına bərə ilə gedə bilərsiniz. Avtobus xidməti Maltanın bütün yaşayış məntəqələrini birləşdirir. Taksiləri xüsusi dayanacaqda tapmaq, küçədə saxlamaq və ya onlayn sifariş etmək olur.

Adada turistlərin üstünlük verdiyi “Üç şəhər” turları çox məşhurdur. İki avro ödəməklə kiçik taxta qayıqlarla bu şəhərdən digər şəhərə rahatlıqla getmək mümkündür. Müasir katamaranlar isə Maria Doloresdən turistləri dəniz yolu ilə Siciliyaya çatdırır.



## ADADA YAŞAMAĞIN ÜSTÜNLÜYÜ

Ənənəvi Malta mətbəxi Avropa və ərəb ənənələrinin qarışığıdır və yerli ləzzətlə sıx şəkildə birləşir. Burada balıq və dəniz məhsulları, tərəvəz və ədviyyatlara çox önəm verilir. Adanın yeməkləri yaxınlıqdakı İtaliyanın mətbəxini xatırladır, lakin onlarda şərqli, xüsusən cənublu dadları daha qabarıqdır. Maltalıların menyusunda balıq və dəniz məhsulları da var, lakin kifayət qədər bahadır (30-45 avro).

Adaya gələnlər burada qaldıqları müddətdə yaxşı həyat şərtlərindən zövq alırlar. Münasib yaşayış qiymətləri adanı tətil üçün seçməyin səbəblərindən biridir.

Yerli mətbəxdə zeytun yağı üstünlük təşkil edir. “Malta mətbəxi Malta tarixini əks etdirir. Burada ənənəyə hörməti saxlayırlar. Axı adada yeməklər əvvəllər daş ocaqlarda, yavaş odda bişirilirdi”, - deyə müxtəlif növ balıq və ədviyyatlarla bişmiş yeməklərini təqdim edirlər. Maltada türk lokantaları da gözə dəyir. Türklər də əlverişli iqlimi və iqtisadi vəziyyətinə görə işləmək üçün adanı seçirlər. Kafedə çalışan gənc türk qızı Türkiyə ilə müqayisədə adada yaşamağın daha əlverişli olduğunu söylədi: “Maltada çalışırkən ən azı hər ay 200 avro qənaət edə bilirəm. Ancaq Türkiyədə bu, mümkün deyil. Adada minimum əmək haqqı 1200 avrodur. Burada hər kəsin işi var”.

Malta - romantizm axtaran insanlar üçün yaxşı tətil yeridir. Bura səfər etsəniz, şəhər və kəndlərdə il boyu keçirilən festivalların iştirakçısı olmaq şansınız da var.



# DONDURULMUŞ ƏTLƏRƏ MÖHTAC QALA BİLƏRİK

Xaricdən ət idxalımız artmaqda davam edir. Faktiki olaraq xaricdən gətirilən ətdən asılı vəziyyətə düşmək- dəyik. Ekspertlərin bir çoxu bunu yerli istehsalın azalması ilə əlaqələn- dirsələr də, fərqli düşünənlər də var.

SEVİNC ABBASOVA

Azərbaycanın ətlə təminatında idxaldan asılılıq artır. Bunu rəsmi rəqəmlər də təsdiqləyir. Məsələn, 2024-cü ilin yanvar-iyul aylarında Azərbaycana 30 min 722 ton ət idxal edilib. Dövlət Gömrük Komitəsinin statistikasına görə, bu həcmdə ətin dəyəri 68 milyon 543 min ABŞ dollar təşkil edib. Bunlar, ötən ilin eyni dövrü ilə müqayisədə həcm baxımından 6 min 490 ton (26,7 faiz), dəyər baxımından isə 21 milyon 602 min ABŞ dolları (46 faiz) çoxdur.

Hazırda ət idxal etdiyimiz əsas ölkələr Rusiya, Gürcüstan və Qazaxıstandır. Ekspertlər ət idxalının artmasını müxtəlif səbəblərlə izah edirlər. Mütəxəssislərin fikrincə, son illər ölkəmizdə örüş sahələrinin azalması, yem komponentlərinin bahalaşması heyvandarlığın inkişafına mənfi təsir göstərib. Həm iri, həm də xırdabuynuzlu heyvanların saxlanılmasına çəkilən xərclərin 2-3 dəfəyə qədər artması bu sahə ilə məşğul olan sahibkarları profillərini dəyişmək məcbu- riyyətində qoyub. Bəs görəsən, Azərbaycanın ətlə təminatda idxaldan asılılığın artması risk yaradırmı?



### ADAMBAŞINA İLLİK 42 KİLOQRAM ƏT

Rəsmi statistikaya görə, ölkəmizdə adambaşına düşən illik ət və ət məhsulları 42 kiloqrama yaxındır. Hesab-lamalara əsasən, bunun 16 kiloqramı mal ətinin payına düşür. Bundan əlavə, qoyun və keçi əti istehlakı adambaşına 9 kiloqram, quş əti isə 15,4 kiloqram təşkil edir. Bu da dünyanın inkişaf etmiş ölkələri ilə müqayisədə aşağı göstərici sayılır. Belə ki, Azərbaycan dünyanın bir çox inkişaf etmiş ölkələrindən ət istehlakına görə, təxminən 40 faiz geri qalır. Adambaşına düşən illik ətin 75-80 faizinin yerli istehsal hesabına qarşılandığı bildirilir.

Yeri gəlmişkən, son illər heyvandarlığa marağın azalması iri və xırdabuynuzlu heyvanların baş sayının azalmasına da səbəb olub. 2024-cü ilin ilk 6 ayında Azərbaycanda inək və camışların, qoyun və keçilərin sayında azalma qeydə alınıb. Ötən ilin eyni dövrü ilə müqayisədə iribuynuzlu mal-qaranın sayı 1,6 faiz, onlardan inək və camışların sayı 1,1 faiz, qoyun və keçilərin sayı 2,6 faiz azalıb. Azərbaycanda quşların sayında da azalma olub. İlin ilk 6 ayında ölkədə 12 milyona yaxın quş olub, bu, ötən illə müqayisədə 0.5 faiz azdır.

### OTLAQ SAHƏLƏRİ AZALIB

İqtisadçı-ekspert Cəfər İbrahimli bildirib ki, heyvandarlığın inkişafı Azərbaycan üçün prioritet sahələrdəndir. Onun sözlərinə görə, 2010-cu ildən etibarən bu sahədə xaricdən asılılığın azaldılması əsas hədəf kimi qoyulub: "İndiyədək bu istiqamətdə azalmaya nail ola bilməmişiksə, deməli, risklər mövcuddur. Əslində 2010-cu ildən dövlət damazlıq heyvanların ölkəyə gətirilməsinə və intensiv təsərrüfatların yaradılmasına xüsusi vəsait ayırıb. Böyük intensiv təsərrüfatlara iri həcmli kreditlər verilib. Yəni, dövlət üzərinə düşən öhdəlikləri yerinə yetirib. Bu məsələdə əsas problem örüş və otlaq sahələri ilə bağlıdır. Demək olar ki, mövcud infrastruktur yox olmaq həddindədir. Torpaq sahələrinin bitki örtüyünün yaxşılaşdırılması istiqamətində heç bir iş aparılmır. Bütün bunlar əsasən, xırdabuynuzlu heyvanların saxlanılmasında ciddi çətinliklər yaradır. Fermerlər məcburi olaraq yarıyemləmə üsulundan istifadə edirlər. Bu da onların xərcini artırır".

Ekspertin sözlərinə görə, hazırda işğaldan azad olunmuş ərazilərdə yeni örüş sahələri açılıb. Həmin ərazilərdən effektiv istifadə olunarsa, heyvandarlığın inkişafında müsbət dönüş əldə oluna bilər. Mövcud imkanlar hesabına ət idxalını 50-60 faiz azaltmaq mümkündür.





Cəfər İbrahimli

Foto: Səbinə Şəbiyeva - /Global Media Group

## 2018-Cİ İLDƏN BƏRİ ƏT İSTEHSALI İLBƏİL AZALIR

Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli qeyd edib ki, Azərbaycanda 2018-ci ildən bəri ət istehsalı ilbəil azalır: "Son üç ildə bu sahədə antirekord qeydə alınıb. Adətən yay aylarında bir qayda olaraq ətə tələbat azaldığına görə qiymətlər aşağı düşürdü. Çox təəssüf ki, 2023-cü ilin yayından bu ənənə pozuldu. Ət yay aylarında da bahalaşır. Bu il də analoji vəziyyətdir".

A.Nəsirlinin sözlərinə görə, kənd yerlərində örüş yeri olmadığından heyvanlar ancaq tövlələrdə bəslənilir: "Bu da məhsulun maya dəyərini artırır. Təbii ki, əksər kənd adamları da rəqabətə tab gətirə bilmədilər, heyvanlarını dəyər-dəyməzinə satdılar. Nəticədə istehsal ciddi şəkildə azaldı. Ona görə də əhalinin qırmızı ətə olan ehtiyacı bu gün daha çox idxal hesabına ödənilir. Yaqin ki, ət idxalı artacaq. Bir müddət sonra idxal ətlərini kütləvi şəkildə görəcəyik. Hətta vəziyyət bu şəkildə davam edərsə, 90-cı illərdə olduğu kimi don-durul-muş ətlərə möhtac qala bi- lərik".



Akif Nəsirli

## İSTEHSALIN STİMULLAŞDIRILMASINA EHTİYAC VAR

A.Nəsirli hesab edir ki, ət idxalını azaltmaq üçün yerli istehsalı stimullaşdırmaq lazımdır: "Hər bir kənd üçün örüş yerləri yaradılmalıdır. Rentabelsiz sahələrə diqqət azaldılmalıdır. İşğaldan azad olunmuş ərazilərin imkanlarından da istifadə edilməlidir. Bildiyimiz kimi, tarixən Laçın, Kəlbəcər yaylaqları heyvandarlıq üçün əlverişli ərazilər olub. Ən azından ilin 3-4 ayını insanlar öz heyvanlarını yaylaqlarda açıq örüşlərdə bəsləyirdi. Həmin örüş sahələri yenidən dövriyyəyə qaytarılsa, əminəm ki, yerli istehsal artacaq".

### TURİZM SEKTORUNUN CANLANMASI ƏTƏ OLAN TƏLƏBATI ARTIRIB

Kənd təsərrüfatı məsələləri üzrə ekspert Mircavid Həsənov isə hesab edir ki, ölkəyə idxal olunan ətin həcminin artması istehsalın azalması ilə bağlı deyil. Onun fikrincə, bu məsələyə turizm sektorunun canlanması da təsir göstərib: "Əslində bizdə kifayət qədər istehsal var. Sadəcə, son illər ölkəmizdə ətə olan tələbat artıb. Ət idxalının artmasında turizm sektorunun canlanmasının da xüsusi rolu var".



Mircavid Həsənov

Ekspert bildirib ki, Azərbaycan ət idxalını artırmaqla yanaşı, ixracı da artırıb: "Bu gün Ərəb ölkələrinə, Dubaya ət ixrac edirik. Məsələn, Hacıqabulda bir təsərrüfat var ki, onun steyk üçün istehsal etdiyi ət ərəb ölkələrinə ixrac edilir".




# “NAR” ABİTURİYENTLƏRİ MÜKAFATLANDIRDI

Ən sərfəli mobil operator mövqeyini qoruyan “Nar” sosial layihələrə də dəstəyini davam etdirir. Belə ki, “Nar” 2023-2024-cü tədris ilində ali məktəblərə qəbul imtahanlarında ən yüksək nəticə göstərən ilk on abituriyentini xüsusi hədiyyələrlə təltif edib. Modern.az İnformasiya Agentliyinin dəstəyi ilə keçirilən bu layihə çərçivəsində tələbə adını qazananlara operatordan qızıl nömrə, 700 AZN balans və müasir smartfonlar hədiyyə edilib.

Mükafatlandırma mərasimində tanınmış dövlət, ictimai-siyasi xadimlər və media nümayəndələri iştirak edərək, ilin ən uğurlu abituriyentlərini təbrik ediblər. “Nar”ın İctimaiyyətlə Əlaqələr və Korporativ Ünsiyyət Departamentinin direktoru Hökümə Kərimova da çıxış edərək gəncləri təbrik edib, onlara gələcəkdə uğurlar arzulayıb və qeyd edib: “Təhsilə yönəlik layihələrə dəstək olmaq, “Nar” üçün yalnız bir sosial məsuliyyət deyil, eyni zamanda ölkəmizin uğurlu gələcəyinin qurulmasına töhfə vermək deməkdir. Sizin inkişafınız ölkəmizin gələcək uğurlarının təməlini təşkil edir və biz bu yolda sizə dəstək olmağa davam edəcəyik”.

“Nar”ın artıq səkkiz ildir ki, ənənəvi olaraq, davam etdirdiyi bu təşəbbüs mobil operatorun təhsilə verdiyi önəmi bir daha sübut edir.

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# “BAKCELL” VƏ BŞHƏŞ JURNALİSTLƏRLƏ GÖRÜŞ KEÇİRİB

Ölkənin ən sürətlisi “Bakcell” 4 sentyabr tarixində Bakı Şəhər Halqası Əməliyyat Şirkəti ilə birgə jurnalistlər üçün səhər yeməyi təşkil edib.

Görüşdə “Bakcell” və “Bakı Şəhər Halqası Əməliyyat Şirkəti” nümayəndələri Azərbaycanda keçiriləcək sürət yarışının əhəmiyyəti barədə ətraflı danışıb, media nümayəndələrini maraqlandıran sualları cavablandırıblar.




“Bakcell”in İctimaiyyətlə əlaqələr və korporativ kommunikasiyalar üzrə direktoru Aysel Süleymanova çıxışında “Bakcell” və “FORMULA 1 QATAR AIRWAYS AZƏRBAYCAN QRAN PRİSİ 2024” çərçivəsində tərəfdaşlığın təsadüfi olmadığını vurğulayıb: “Hər iki tərəf özündə sürət və innovasiyaları ehtiva edir. Aprel ayında yeni brend strategiyasını təqdim edən “Bakcell”, ötən dövr ərzində bir sıra innovativ və yüksək sürətli məhsullarını istifadəçilərin ixtiyarına verib. Belə ki, şirkət ölkəmizdə mövcud ən sürətli internet xidmətini - “Fiber 1” məhsulunu təqdim edib. Bundan əlavə, “Bakcell”in yeni məhsulları olan VoWiFi (Wi-Fi üzərindən zəng) xidməti, ən geniş partnyor şəbəkəsinə malik “Bakcell Kart” və süni intellekt dəstəkli “Tarif Məsləhətçisi” müştərilərimizin xüsusi marağına səbəb olub”.

Qeyd edək ki, “Bakcell” “FORMULA 1 QATAR AIRWAYS AZƏRBAYCAN QRAN PRİSİ 2024”ün rəsmi tədbir sponsorudur. Bununla bağlı “Bakcell” və Bakı Şəhər Halqası Əməliyyat Şirkəti çərçivəsində müqavilə imzalanıb.

“Bakcell” Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda ”Bakcell” üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verməyə çalışır və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

“Bakcell” müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# SOCAR XORVATİYAYA QAZ TƏCHİZATINA BAŞLAYIB




Sentyabrın 1-dən Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Xorvatiyaya qaz təchizatına başlayıb. “Report” SOCAR-a istinadən xəbər verir ki, Azərbaycan və Xorvatiya hökumətləri arasında mövcud olan uğurlu əməkdaşlıq nəticəsində qış mövsümü ərəfəsində Azərbaycan qazının PPD şirkəti və MET Qrup vasitəsilə Xorvatiyaya çatdırılması ölkəmizin Avropanın etibarlı enerji tərəfdaşı və qaz təchizatçısı kimi rolunu daha da möhkəmləndirir.

Azərbaycan ilə Xorvatiya arasında enerji sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addım olan bu hadisə SOCAR-ın Avropa daxili bazarları üçün enerji mənbələrinin şaxələndirilməsi üzrə öhdəliyinə sadiqliyini nümayiş etdirməklə qitənin enerji təhlükəsizliyinin gücləndirilməsinə xidmət edir.

Beləliklə, Xorvatiya Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya və Sloveniya ilə birlikdə Azərbaycan qazını alan onuncu ölkə olub.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 2058
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
7 SENTYABR ŞƏNBƏ 2024
kaspi.az

# NƏHƏNGLƏRİN TRANSFER SƏRGÜZƏŞTLƏRİ

Yay transfer dövrü Türkiyə Super Liqasının səviyyəsinin getdikcə yüksəldiyini göstərir. Transfer olunan ulduz futbolçular liqanın keyfiyyətini artıraraq azarkeşlərə daha maraqlı və rəqabətli bir mövsüm vəd edir.



Yay transfer dövrü Türkiyə Super Liqasında kifayət qədər hərarətli keçdi. Düzdür, qonşu ölkədə "pəncərə" hələ açıqdır. Lakin Avropanın əksər liqalarında transfer dövrünün başa çatması və Super Liqa təmsilçilərinin keçidlər üçün əsasən böyük klublara üz tutması heyət quruculuğunda əsas addımların həyata keçirildiyini deməyə əsas verir. Bundan sonra yalnız klubsuz oyunçuların cəlbi gündəmdə ola bilər ki, bu da ulduz adların gəliş ehtimalını azaldır. Ümumən, klub rəhbərləri komandalarını gücləndirmək üçün ciddi addımlar atdılar. Xüsusilə İstanbul nəhənglərinin transfer savaşları həyəcanlı alındı. Bu yazıda Azərbaycanda da çoxlu izləyicisinin olduğu Super Liqada baş verən əsas hadisələrə və diqqətçəkən transferlərə nəzər salacağıq.

### SON GÜNDƏ PARTLAYAN "TRANSFER BOMBASI"

Şübhəsiz, Super Liqada yayın əsas sürpriz keçidi "Qalatasaray"ın payına düşdü. Son çempion Avropada transfer dövrünün son günündə "Napoli"dən Viktor Osimheni heyətinə qatmağı bacardı. Yay ərzində nigeriyalı forvardın adı gah "Çelsi", gah ərəb klubları ilə çəkildi. Lakin yekunda o, "Qalatasaray"a qismət oldu. Super Liqaya daha çox formasında eniş yaşayan və nisbətən yaşlı oyunçuların üz tutduğunu nəzərə alsaq, Osimhenin "sarı-qırmızılılar"a qoşulması sürpriz oldu. Cəmi 25 yaşı olan Osimhen hazırda dünyada ən yaxşı mərkəz hücumçularından hesab edilir və formasının zirvəsindədir. Onun mövcud qiyməti 100 milyon avrodur. Son gündə partlayan bu "transfer bombası" ilə "Qalatasaray" əsas rəqiblərinə gözdağı vermiş oldu.

### QORXULU GÖRÜNƏN HÜCUM XƏTTİ

İstanbul klubu bu yay, həmçinin, əsas rəqibi "Fənərbağça"dan Miçi Batşuayini azad agent kimi heyətinə cəlb etdi. Osimhen, İkardi, Batşuayi və Hakim Ziyeş ilə komandanın hücum xətti qorxulu görünür. Yarımmüdafiə xəttinə isə Qabriel Sara cəlb olunub. Braziliyalı üçün İngiltərə "Norviç"inə 18 milyon avro ödənib. Komandanı tərk edənlər də var. Kerem Aktürkoğlu "Benfika"ya, Tete "Panatinaikos"a satılıb. Nikolo Zaniolo "Atalanta"ya, Üilfrid Zaha isə "Lion"a icarəyə verilib. Ümumilikdə yeni transferlərə 28 milyon avro xərcləyən "Qalatasaray" satışlardan daha çox - 33 milyon avroya yaxın vəsait əldə edib.

## "XÜSUSİ BİRİ" İLƏ BÖYÜK HƏDƏFLƏR

"Fənərbağça" adına yayın əsas hadisəsi Joze Mourinyonun adı ilə bağlıdır. İstanbul nəhəngi baş məşqçi postuna dünyanın ən yaxşı məşqçilərindən birini gətirməklə hədəflərinin nə qədər böyük olduğunu sübuta yetirdi. "Xüsusi biri" ləqəbli Mourinyonun gəlişindən sonra bir neçə diqqətçəkən transfer də həyata keçirilib. Mərkəz hücumçusu Yussef En-Nesirinin keçidi üçün "Sevilya"ya 20 milyon avroya yaxın məbləğ ödəndi. Bu, daha əvvəl hücumda demək olar ki, yalnız Edin Cekodan asılı olan komandanın imkanlarını artıracaq. Bundan başqa, "Əl-Əhli"dən icarəyə götürülən Alan Sen-Maksimin də ön xətti gücləndirməyə hesablanmış addımdır. "Fiorentina"dan Sofian Amrabat və "Milan"dan Rade Krunyiç orta xəttə cəlb edildi ki, hər ikisi yarımmüdafiəyə keyfiyyət qatacaq.



Joze Mourinyo

## YAYIN ƏSAS GEDİŞİ

"Fənərbağça" adına yayın əsas gedişi isə Ferdi Kadıoğlunun adı ilə bağlıdır. Türkiyə millisinin də üzvü olan müdafiəçi İngiltərənin "Brayton" klubuna 30 milyon avroya satıldı. Bu, klubun maliyyə imkanlarını artırıb. Lakin "Qalatasaray"dan fərqli olaraq, "Fənərbağça" yay transfer dövrünü defisitlə başa vurur. Klub yeni oyunçulara 50 milyon avroya yaxın xərcləyib və ümumi qazancı 30 milyon avrodan bir qədər artıqdır.



Ferdi Kadıoğlu

## "İDDİASI ARTAN "QARA QARTAL" GÜCLƏNİR



Covanni van Bronxorst

Son illər "Qalatasaray" və "Fənərbağça" ilə rəqabətdə geri qalan "Beşiktaş" bu yay vəziyyəti dəyişməyi bacardı. Baş məşqçi postuna "Reyncers"dəki fəaliyyəti ilə məşhurlaşan Covanni van Bronxorstu gətirən "qara qartal" hücum xəttini gücləndirməsi ilə diqqət çəkdi. "Latsio"dan ulduz forvard Çiro İmmobile cəmi 2 milyon avroya transfer edildi. "Benfika"nın hücumçusu Rafa Silva isə komandaya pulsuz qoşuldu. Dayaq yarımmüdafiəçisi Əl-Musrati üçün isə "Braqa"ya 11 milyon avro ödənib. Eyni zamanda "Atletiko"dan müdafiəçi Qabriel Paulista və PSJ-dən potensiallı orta xətt oyunçusu Şer Ndur icarəyə götürülüb. Komandanı tərk edənlər arasında ciddi adın olmaması "Beşiktaş"ın güc itirmədən gücləndiyini deməyə əsas verir. Komandanın yay ərzində ümumi maliyyə itkisi isə 19 milyon avroya yaxındır.

### ARTAN KEYFİYYƏT, YÜKSƏLƏN RƏQABƏT

Yay transfer dövrü Türkiyə Super Liqasının səviyyəsinin getdikcə yüksəldiyini göstərir. Transfer olunan ulduz futbolçular liqanın keyfiyyətini artıraraq azarkeşlərə daha maraqlı və rəqabətli bir mövsüm vəd edir. Düzdür, Türkiyə klubları Çempionlar Liqasında uğursuzluğa düçar oldular. Lakin hər üç İstanbul nəhənginin Avropa Liqasında irəli getmək üçün yaxşı oyunçu "arsenalı" var. Super Liqada mövsümün əvvəlində isə "Qalatasaray" və "Beşiktaş" itkisiz irəliləyirlər. "Fənərbağça" isə daha çox oyunla əsas rəqiblərini bir xal üstələyir və hazırda liderdir.



Əl-Musrati

Ümumən, bu mövsümün Super Liqada daha baxımlı alınacağı ehtimal edilir. "Fənərbağça" və "Qalatasaray"a "Beşiktaş" da qoşulub və "qara qartal" artıq Super Kuboku qazanmaqla iddiasını ortaya qoyub. Türkiyə futbolu azarkeşlərini olduqca gərgin və maraqlı mövsüm gözləyir.